www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 dekabr 2018-ci il Bazar ertəsi № 270 (7159) Qiyməti 60 qəpik

**Xəbər**

## Bərdədə şok: oğul anasını küçənin ortasında bıçaqladı

yazısı səh.14-də

**Gündəm**

### Milli Qəhrəmanımıza dil uzadan "psixoloq"a sərt təpki




Cahil hərəkət cəmiyyətdə haqlı qəzəb doğurdu; dəyərlərimizi aşağılayanı hansı cəza gözləyir...

yazısı səh.3-də

### ABŞ-ın yeni səfiri Azərbaycana xüsusi missiya ilə gəlir

yazısı səh.9-da

### Eyyub Hüseynovdan SOS: "Restoranlarda insanlara ən təhlükəli qidalar təklif olunur"

yazısı səh.10-da

### Bakıda tikinti bumu mənzillərin qiymətini ucuzlaşdıracaq?

yazısı səh.2-də

### Lukaşenkonun sensasion açıqlamalarından çıxan nəticə: 5 və ya 7 rayon mövzusu qayıdır

yazısı səh.4-də

*Əli Məsimli:*

### "Azərbaycanın AES-ə ehtiyacı yoxdur"

yazısı səh.6-da

### Qış qripi qapıda: peyvənd edək, etməyək - həkimdən tövsiyə

yazısı səh.10-da

### Azərbaycan yeni silahların seriya istehsalına başladı

yazısı səh.3-də

### "Gülü" ləqəbli dələduz Bakıda sahibkarın milyonlarını necə ələ keçirdi - həbs xronikası

yazısı səh.14-də

### Tramp yenidən impiçment təhlükəsi ilə üz-üzə

yazısı səh.12-də

### İlsonu endirimlər - hansı yalançı, hansı doğru...

yazısı səh.15-də

# ERMƏNİSTAN BÖHRAN ZOLAĞINDA - KREML SÜRPRİZƏ HAZIRLAŞIR

Düşmən ölkə seçkiləri adladı, problemləri isə bir az da artdı; yeni ilin ilk aylarındaca Paşinyanı ağır sınaqlar gözləyir, çünki...




yazısı səh.8-də

## "Arif Əsgərovun oğlu pulları Türkiyədə bir qadında saxlayır" - sensasion gəlişmə

Elnar Əsgərovun inandığı və oğurladığı böyük vəsaitləri etibar etdiyi xanım kimdir?

yazısı səh.5-də



*Bayram Səfərov:*

### "Şuşada ölmək istəyirəm"

yazısı səh.7-də



*Sabiq nazirin dostu:*

### "Eldar Mahmudovun oğlunun bir neçə ofşor şirkəti var"

yazısı səh.4-də



### Rasim Məmmədovun zavodlarında ölən fəhlələrin sayı itib - faktlar

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

# Oqtay Əsədov Zurabişvilinin inauqurasiya mərasiminə qatılıb



**Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti Gürcüstan prezidenti Salome Zurabişvilinin bu gün keçiriləcək inauqurasiya mərasimində iştirak etmək üçün Tbilisiyə səfər edib.**

"Report"un yerli bürosunun xəbərinə görə, Tbilisi beynəlxalq hava limanında parlament sədrini Gürcüstan xarici işlər nazirinin müavini Laşa Darsalia və Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov qarşılayıb. O.Əsədovun başçılıq etdiyi nümayəndə heyətinə xarici işlər nazirinin müavini Ramiz Həsənov, Milli Məclisin deputatı, Azərbaycan-Gürcüstan parlamentlərarası dostluq qrupunun rəhbəri Əflatun Amaşov daxildir.

Tbilisi hava limanında Azərbaycan nümayəndə heyəti və L.Darsalia arasında qısa görüş keçirilib. L.Darsalia O.Əsədova Gürcüstana səfər etdiyinə görə təşəkkürünü bildirib. Tərəflər Gürcüstan və Azərbaycan arasında strateji tərəfdaşlığı müzakirə etdiklərini qeyd edərək, gələcəkdə qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsinə hazırlıqlarını ifadə ediblər.

Qeyd edək ki, Gürcüstanın beşinci prezidenti S.Zurabişvilinin andiçmə mərasimi Telavi şəhərində keçirilib. Daha əvvəl Gürcüstan müxalifəti yeni prezidentin inauqurasiya gününə etiraz aksiyası planlaşdırdığını elan etmişdi.



Aleksandr Skakov

## Azərbaycanın sərhədə qoşun yerləşdirməsini rusiyalı ekspert belə yozdu...

**"Azərbaycan rəhbərliyinin Ermənistanla sərhədin Qazax və Ağstafa rayonları istiqamətindən keçən hissəsində sərhəd qoşunlarını yerləşdirməsi Ermənistanla münasibətlər baxımından atılmış addımdır". Virtualaz.org xəbər verir ki, belə rəylə rusiyalı ekspert, Qafqaz və Mərkəzi Asiyanı araşdırma Mərkəzinin baş elmi əməkdaşı Aleksandr Skakov çıxış edib.**

Skakov erməni KİV-lərinə açıqlamasında bildirib ki, bu addım Ermənistanda rəhbərliyin dəyişməsi və müəyyən təmaslar yaratmaq cəhdləri ilə əlaqəlidir. "Ermənistanda rəhbərliyin dəyişməsi Azərbaycanı buna həvəsləndirib ki, müəyyən qarşı addımlar atsın. Yanaşmalarda kəskin dəyişmə də məhz bununla bağlıdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan uzun illər heç bir güzəştə getməyib - o cümlədən Ermənistanla sərhəddən snayperlərin və ağır texnikanın geri çəkilməsi məsələsində. İndi Bakı Yerevandan adekvat addımlar gözləyəcək" - A.Skakov deyib.

Ekspertə görə, buna xüsusi fikir verməK lazımdır ki, qərar Ermənistanla sərhəd rayonlarla bağlı qəbul edilib. "Ermənistanla sərhəddə vəziyyətin kəskinləşməsi münaqişəyə Rusiyanın da qarışmasına gətirib çıxara bilər. Bunu Bakıda bilməmiş deyillər" - o bildirib. Skakovun fikrincə, ola bilsin Bakı bu addımı tərəfdaş ölkələrlə, o cümlədən Minsk Qrupunun həmsədrləri ilə razılaşdırıb.

Xatırladaq ki, sərhəd qoşunlarının Ermənistanla sərhədin Qazax və Ağstafa istiqamətindən keçən hissəsində yerləşdirildiyini Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev açıqlayıb. Bildirib ki, Ali baş komandan İlham Əliyevin əmri ilə sərhədin bu istiqamətindəki döyüş postları sərhəd qoşunlarına təhvil verilib. Müdafiə Nazirliyinin bölmələri isə daha intensiv təlim-məşq hazırlığı və ehtiyat qüvvələrin yaradılması məqsədi ilə geri çəkilib.

Lakin Müdafiə Nazirliyi bu məsələ ilə bağlı bildirib ki, sərhədin Qazax və Ağstafa istiqamətlərindən keçən hissəsində erməni mövqelərindən 2 kilometrə qədər aralıda yerləşən, vəziyyətin nisbətən sabit olduğu postlar sərhəd qoşunlarının bölmələrinə təhvil verilib. Həmin postlara Müdafiə Nazirliyinin bölmələri ağır texnika və silahlarla dəstək verir. Düşmənlə bilavasitə təmas xəttindəki postlar isə ordunun nəzarətindədir.



Rafael Süleymanov

## Azərbaycan kişiləri evlənəndə ən çox ruslara, ukraynalılara üstünlük verir - rəsmi

**2018-ci ilin 10 ayı ərzində Ədliyyə Nazirliyinin rayon, şəhər qeydiyyat şöbələri tərəfindən ölkədə 50882 nikaha daxilolma halları, 12396 boşanma halları qeydə alınıb. Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq Dövlət Statistika Komitəsinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Rafael Süleymanov bildirib.**

R.Süleymanovun sözlərinə görə, hesabat dövründə qeydə alınan 1813 nikah Azərbaycan vətəndaşları ilə xarici ölkə vətəndaşları arasında bağlanıb: "Onlardan 949-u Azərbaycan vətəndaşı olan qadınlarla xarici ölkə vətəndaşı olan kişilər arasında, 864-ü isə Azərbaycan vətəndaşı olan kişilərlə xarici ölkə vətəndaşı olan qadınlar arasında bağlanmış nikahlardır".

Şöbə müdiri azərbaycanlıların nikahda üstünlük verdiyi ölkələrin də adını açıqlayıb: "Azərbaycan vətəndaşı olan qadınlar əsasən Türkiyə, Rusiya və Gürcüstan vətəndaşları ilə, kişilər isə əsasən Rusiya, Gürcüstan və Ukrayna vətəndaşları ilə nikah bağlayıblar".

## Bakıda tikinti bumu mənzillərin qiymətini ucuzlaşdıracaq?

**2015-ci il devalvasiyalarından sonra durğunluq yaranan tikinti sektorunda hiss olunacaq dərəcədə canlanma müşahidə edilməkdədir. Xüsusilə yola salmaqda olduğumuz 2018-ci ilin ortalarından başlayaraq, ölkədə start verilən böyük söküntü işləri də öz növbəsində əmlak bazarında yeni təkliflər portfeli yaradır.**



Demək olar ki, hazırda paytaxtın bütün rayonlarında çoxmərtəbəli binalar inşa edilir. Artıq iş adamları da qəbul edirlər ki, təklif tələbi üstələyir. Bu isə o deməkdir ki, yaxın aylarda Bakıda yeni tikilən evlərin qiyməti nəzərəçarpacaq dərəcədə aşağı düşəcək.

Məsələ ilə bağlı Modern.az-a danışan ekspert Rəşad Əliyev bildirib ki, bir neçə il əvvəl müşahidə edilən tikinti bumunun kökündə tələbatın artması, iqtisadi vəziyyətin yaxşı olması dururdu: "Demək olar ki, iqtisadiyyatın bütün sahələrində inkişaf nəzərə çarpacaq dərəcədə idi və bu şəraitdə əhalidə alıcılıq qabiliyyəti artırdı. Bu da müvafiq olaraq tikinti sektoruna tələbatı artırdı. Tələbata uyğun olaraq da təklif formalaşmağa başlamışdı. Nəticədə tikinti sektorunda hiss olunacaq dərəcədə inkişaf gedirdi. Hazırda müşahidə edilən tikinti sektorundakı canlanma isə bir qədər fərqli amillərlə bağlıdır".

R.Əliyevin sözlərinə görə, tikinti sektorundakı hazırkı canlanma pilot layihələrin hesabına gerçəkləşir: "Bu layihələr çərçivəsində investorlar cəlb olunub. İrəli sürülən nisbətən yüngül şərtlər tikinti şirkərlərinin marağınadadır. Demək olar ki, müşahidə edilən tikinti bumu tələbatla yox, təkliflə bağlıdır. Amma nəzərə almaq lazımdır ki, daşınmaz əmlaka, xüsusilə də mənzillərə tələbat hər zaman var. Sadəcə olaraq, dövri olaraq alıcılıq qabiliyyətindən asılı olaraq dəyişir. Bir çox tikinti şirkətləri pilot layihələr çərçivəsində tikinti ilə məşğul olmağa başlayıb. Təklifin qarşılığında müvafiq tələbat yoxdur. Alıcılıq qabiliyyəti yüksəlməzsə, hazırda tikinti sektorunda müşahidə olunan intensivliyi saxlamaq çox çətin olacaq".

Ekspert təkliflə tələbi uyğunlaşdırmaq üçün müəyyən güzəştlərin tətbiq olunmasının tərəfdarıdır: "Hansısa yollarla tələbatın stimullaşdırılması lazımdır. Yəni elə şərtlər olmalıdır ki, tikilən mənzillər vətəndaş üçün əlçatan olsun. Bu, bütün sahələrdə belədir ki, təklif tələbata uyğun formalaşdırılır. Biz isə təklifin formalaşmasını görürük, alıcılıq qabiliyyətinə malik tələbat isə yoxdur. Bir çox ölkələrdə olduğu kimi aşağı faizlərlə mənzil satışları həyata keçirilməlidir. Bir çox alətlər istifadə olunmalıdır. Pilot layihələrin əksəriyyətinin eyni vaxtda start götürdüyünü nəzərə alsaq, yaxın gələcəkdə bazara daha çox mənzilin çıxarılacağını gözləmək olar. Bəzilərinin tikintisi heç başa çatdırılmayıb. Amma tikinti başa çatdıqca, bazara daha çox əmlak çıxarıldıqca, alıcılıq qabiliyyətini stimullaşdırmaq lazım gələcək".


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**




## Bu gündən havalar daha da soyuyacaq

**Dekabrın 17-də respublika ərazisində gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gündüz bəzi yerlərdə çiskinli olacağı, axşama doğru isə yağış yağacağı gözlənilir.**

Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 3-5°, gündüz 5-7° isti, Bakıda gecə 3-5°, gündüz 5-7° isti təşkil edəcək. Atmosfer təzyiqi normadan yüksək 774 mm civə sütunu ndan 770 mm civə sütununa enəcək. Nisbi rütubət 75-85 % olacaq. Milli Hidrometeorologiya Departamentinin xəbərdarlığına görə, dekabrın 17-si gündüz bəzi yerlərdə arabir çiskinli yağış yağacağı gözlənilir. 18-də ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var.

Azərbaycanın rayonlarında gecə və səhər bəzi yerlərdə duman, çiskin, axşama doğru isə havanın yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-5° isti, gündüz 5-8° isti, dağlarda gecə 1-5° şaxta, gündüz 2-4° isti təşkil edəcək.

Xəbərdarlığa əsasən, dekabrın 17-si günün ikinci yarısından 19-dək ölkə ərazisində havanın şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-7° aşağı enəcək. Çaylarda sululuğun artacağı ehtimalı var.

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018




# Şəhid Milli Qəhrəmanımıza dil uzadan "psixoloq"a sərt təpki

## Bu cahil hərəkət cəmiyyətdə haqlı qəzəb doğurdu; dəyərlərimizi aşağılayanı hansı cəza gözləyir...

**Özünü "psixoloq" kimi təqdim edən Nərmin Şahmarzadənin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu "cinayətkar" və "qatil" adlandırması haqlı olaraq cəmiyyətdə böyük hiddət doğurub. Sosial şəbəkələr və mətbuatda N.Şahmarzadə "məhşər ayağı"na çəkilir, o, sərt ifadələrə "qonaq edilir". Tanınmış simalar da məsələyə biganə qalmırlar.**

"Onun qəhrəmanlığını qəbul etməmək Azərbaycan maraqlarını düşünməyən insanların işidir. Mübariz İbrahimov əsl qəhrəmanlıq, igidlik, cəsurluq simvolu kimi yaddaşlarda həmişə qalacaq. Təbii ki, düşmən tərəfi də var və Mübariz İbrahimovun qəhrəmanlığını gözdən salmağa çalışırlar. Məsələyə bu konteksdə baxmaq lazımdır". Bu sözləri Publika.az-a açıqlamasında deputat Fazil Mustafa deyib. Onun sözlərinə görə, Mübariz İbrahimovu sevməyən və onun barəsində bu cür fikirlər səsləndirən adamlar ola bilər, amma Azərbaycanı sevən, onun maraqlarını düşünən insanlar Milli Qəhrəmanımıza yüksək qiymət verirlər.

"Mübariz İbrahimov bir sindromun qırılmasında mühüm rol oynayıb. Bəzən nadanlar və cahillərin bir qismi bildirirlər ki, o, hansısa bir məktəbin, məzhəbin təmsilçisi olduğu üçün bunu edib. Bunlar onun qəhrəmanlığını gözdən salmaq üçün atılan addımlardır. Mübariz İbrahimov birbaşa Azərbaycanın dəyərlərini yaşadan, onun düşmənindən qisasını alan bir qəhrəmandır. O, hansısa bir məktəbin deyil, bütövlükdə Azərbaycanın yetirməsidir. Mübariz İbrahimov bütövlükdə islam dünyasının qəhrəman oğludur", - deputat bildirib.

Deputat Adil Əliyev "psixoloq"un cinayət məsuliyyətinə cəlb olunmasını tələb edir: "Qəhrəman Mübariz İbrahimovu təhqir edən Nərmin Şahmarzadəni cinayət məsuliyyətinə cəlb etmək lazımdır. Buna yalnız sosial şəbəkələrdə reaksiya verməklə kifayətlənmək olmaz. Məsələyə mütləq hüquqi qiymət verilməlidir. Milli Qəhrəman və şəhidlərimiz bu həyatda bizlərə əmanətdir. Onların problemləri ilə məşğul olan QHT rəhbərlərinə müraciət edirəm. Məhkəməyə müraciət etmək üçün nəyi gözləyirsiniz?"

Müğənni Ruhi Əliyeva isə sosial şəbəkə hesabında bu statusu paylaşıb: "Bu məsələyə görə sözün əsl mənasında sarsıntı içindəyəm. Ermənilərin millətimizə etdiyi saysız qətliamlar, soyqırımlar haqda geniş xatırlatmaya hər halda ehtiyac duymuram. Çünki hər birimizin damarında axan qan məhz odur! Bizim ana-bacılarımızın fəryadı hələ çəkilməyib. Erməninin axıtdığı Azərbaycan qanı hələ soyumayıb. O daşnakların ayaqları altda qalan körpələrin naləsi hələ qulağımızdan getməyib. Bəs necə ola bilər ki, bu xalqın belə övladı olsun? Evdə hansı tərbiyəni görüb bu? Nərmin adlı qızın qəhrəman Mübariz İbrahimov haqda dedikləri absurddur. Amma ən böyük faciə bu torpaqda yetişən, milləti Azərbaycan, əqidəsi mərhəmət olması gərəkən bir qızın vətəninə xəyanətidir! Mübariz sənin kimilər bu gün ağlına gələni danışsın deyə vətən uğrunda şəhid oldu? Ar olsun, ayıb və haram olsun bu qan sənə! Dostlar, düşünürəm ki, bu mənəviyyatsız biri ilə dövlət orqanları danışmalıdır. O, qanun qarşısında cavab verməlidir. Biz o xainin şəklini paylaşıb, reklam etməkdənsə, bunu tələb etməliyik".

Psixoloq Fərqanə Mehmanqızı isə "Hamımız Mübarizik" başlıqlı bu statusla öz sərt mövqeyini sərgiləyib: "30 illik müharibə, minlərlə şəhid, minlərlə günahsız insanın - körpə, yaşlı - qətli, doğma yurdlarından didərgin salınmış insanlar, işğal olunmuş torpaqlar, yer üzündən silinmiş, viran qoyulmuş şəhərlər, yurd yerləri - budur reallıq. Qəhrəmanlıqla döyüşüb şəhid olan Azərbaycan əsgərini qəddarlıqda günahlandıran şəxslərin insanlıqdan, mənəviyyatdan anlayışı yoxdur deməli. Bu düşüncə Azərbaycan insanın düşüncəsi ola bilməz. Şəhidlik uca zirvədir, dəyərdir, mənəviyyatdır. Bunu bilməyən, anlamayan, əksini iddia edən bizdən deyil".

Göründüyü kimi, "psixoloq"un cəzalandırılması üçün edilən tələblərin sayı artmaqdadır. Xüsusilə, onun geri çəkilib üzr istəmək əvəzinə, ard-arda statuslar paylaşması etirazları artırır. Azərbaycan qanunvericiliyində şəhidlər, Milli Qəhrəmanlar haqqında bu cür sərsəm fikirlər səsləndirənlərlə bağlı cəzalar nəzərdə tutulan maddələrin olmasının vacibliyi vurğulanır.

Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı N.Şahmarzadənin hansısa dairələrin sifarişini yerinə yetirdiyini ehtimal edir: "Görünür bunlar haradansa maliyyə dəstəyi alırlar. Guya psixoloq olaraq məsələyə bu cür yanaşırlar. Bunlar ona xidmət edir ki, gənclərimizi milli vətənpərvərlik ruhundan, vətən sevgisindən uzaq tutsunlar. Bu cür hazırlanmış insanlar var. İllərlə onların üzərində işlər gedir və sonunda həmin şəxslər bu səviyyədə hazırlayırlar. Sonunda cəmiyyətimiz üzərində özlərini "psixoloq" adlandıran bu cür insanlar vasitəsilə çalışırlar. Türkiyə Fox.tv televiziyasında yayım yönətməni Şenol bəy var. Biz onunla görüşdük. Mən ona təşəkkür etdim ki, siz "Savaşçı" filmində Azərbaycan bayrağı və bir əsgərin dilindən Mübarizin qəhrəmanlığından bəhs etmisiniz. Dedi ki, Mübarizin vətəni uğrunda etdiyi qəhrəmanlığı edəcək insanlar bir əsrdə 5 adam yetişə bilər ya yox. Mübarizləri yetişdirməyin asan olmadığını da bildirdi. Görün Türkiyəmizdə bizim qəhrəmana necə dəyər verilir. Mübariz türk millətinin artıq milli qəhrəmanıdır. O təkcə Azərbaycana məxsus deyil. Onun qəhrəmanlığı sərhədlərimizdən qat-qat uzaqlara gedir. Mübarizin adının əbədləşdirdiyi bir anda belə fikirləri təsadüfi saymaq olmaz. Mübarizin isminin türk gənclərinin simvoluna çevrildiyi bir vaxtda belə fikirləri təsadüfi saymıram. Belə fikirlər ancaq erməni zehniyyətinə xidmət edər. Məsələni bu cür dəyəndirirəm".

Hüquqşünas Əlövsət Alahverdiyev "Yeni Müsavat"a bunları dedi: "Cinayət qanunvericiliyinə görə, hər hansı bir şəxs söylədiyi fikirlərə görə deyil, konkret əmələ görə məsuliyyət daşıyır. Bu baxımdan xanımın söylədiyi hər hansı fikrə görə onu cəzalandırmaq, cinayət məsuliyyətinə cəlb etmək qanunvericilikdə nəzərdə tutulmur. Amma xanımın fikirlərinə münasibət bildirməmək mümkün deyil. Çünki çox həssas bir məsələdir. Ərazi bütövlüyümüz hazırda pozulmuş vəziyyətdədir. Belə bir məqamda insanlar məsələyə həssas yanaşdığı bir vaxtda belə fikirlərə cəmiyyətin mənfi reaksiyası normaldır. Onun fikirlərinə münasibət bildirərkən demək istəyirəm ki, xanım hüquqçu deyil. O, adi bir vətəndaşdır. Xanım söyləyir ki, işğal olunmuş ərazimizdə Mübariz erməni əsgərini öldürüb və bunu cinayət kimi qələmə verir. Bu, kökündən yanlışdır. Çünki müharibə haqqında 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyası var. Beynəlxalq humanitar hüquq normalarına görə, əlinə silah götürmüş şəxs qarşı tərəfə yönəlik döyüşürsə, o məhz əlinə silah götürdüyünə görə hərbi hədəfdir, yəni öldürülməlidir. Burada hansısa rəhmdən söhbət gedə bilməz. Eyni zamanda, kiminsə anasının göz yaşlarını önə çəkmək, yaxud kiminsə günahsız öldürüldüyünü söyləmək populist fikirlərdən başqa bir şey deyil. Çünki bu hərbi hədəfdir və silahı bizə qarşı yönləndirib. Necə ola bilər ki, onu öldürmək olmasın. Onu öldürməyin özü belə heç bir məsuliyyət yaratmır. İstər döyüşdə, istərsə də, başqa bir vaxt hərbi hədəfin öldürülməsi beynəlxalq konvensiyaya görə məsuliyyət yaratmır. Əgər o, mülki şəxs olsaydı, əlinə silah götürməsəydi, onun öldürülməsi məsuliyyət yaradır. Cinayət Məcəlləmizdə də bu müddəa var. Cinayət Məcəlləsinin 115 və 116-cı maddələrində konkret olaraq müharibə cinayətləri göstərilib. Burada da göstərilir ki, tarixi mədəniyyət abidələri dağıdılmamalı, mülkü şəxslər fiziki zorakılığın qurbanı olmamalıdır. Bu baxımdan məsuliyyət daşımasa da, xanımın söylədiyi fikirlərə laqeyd qalmaq olmaz. Bunları araşdırmaq xüsusi xidmət və hüquq mühafizə orqanlarının işidir. Ola bilər ki, xanım kimlərsə tərəfindən öyrədilib, bu məsələyə münasibət bildirməyə sövq edilib. Hər kəs fikir söyləməkdə azaddır. Amma o xanımı onun üçün qınayıram ki, Xocalıda baş verən hadisələrin fonunda, ermənilər tərəfindən fiziki zorakılığa məruz qaldığımız bir zamanda o xanım ermənilərin onun düşməni olmadığını söyləyir. İnsanlıq nöqteyi-nəzərindən yanaşanda heç kəsi düşmən kimi qəbul etmirik. Amma torpaqlarımızı işğal edən bir ölkənin ordusunda əlinə silah alanları necə düşmən kimi qəbul etməyək? Cəmiyyət məsələyə çox sərt təpki göstərir. Reaksiyaları müsbət dəyərləndirirəm. Görürəm ki, bir tələbənin səsləndirdiyi fikirlərə insanların münasibəti çox sərtdir. Belə reaksiyalar onun üçün olmalıdır ki, başqaları bu xanıma baxıb, həvəslənib bu cür fikirlər söyləməsin".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



## Azərbaycan yeni silahların seriya istehsalına başladı

**Ötən illərdə olduğu kimi, bu il də yeni nəsil silah növlərinin yaradılması və istehsalı ilə bağlı dövlət başçısının verdiyi tapşırıqların icrası istiqamətində məqsədyönlü işlər davam etdirilib.**

Belə ki, nazirliyin müəssisələrində yaradılan və sınaqları keçirilərək silahlanmaya tövsiyə olunan 7,62x51 millimetrlik xüsusi təyinatlı "Yalquzaq" snayper tüfənginin, 7,62x54 millimetrlik xüsusi təyinatlı əl pulemyotunun, 30 millimetrlik avtomatik qumbaraatan kompleksinin, 40x46 millimetrlik əl qumbaraatanı və onun 4 növ atəş yığımlarının, F-1 tipli təlim əl qumbarasının, M-6, M-12 tipli mina partladıcıların və sair məmulatların cari ildə seriyalı istehsalı aparılıb.

Musavat.com xəbər verir ki, bunu Azərbaycan müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev "Azərbaycan" qəzetində dərc olunan məqaləsində deyib. Onun sözlərinə görə, eləcə də ixrac istiqamətində istehsal həcminin artması ilə əlaqədar yeni texnologiya əsasında istehsal xətti qurulub və pulemyotlar üçün 100 və 200 yerlik patron lent və qutularının kütləvi istehsalı təmin edilib.

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

## Sabiq nazirin dostu: "Eldar Mahmudovun oğlunun bir neçə ofşor şirkəti var"



**Eldar Mahmudovun şəriki, sabiq nazirin milyonlarına nəzarət etmiş Sahib Ağayevin məhkəməsi davam etdirilir. Musavat.com bu cinayət işi ilə bağlı yeni təfərrüatlar əldə edib.**

Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə ittiham edilərək hakim qarşısına çıxarılan Sahib Ağayevin cinayət işi üzrə məhkəmə iclasına hakim Samir Əliyev sədrlik edir. Məhkəmənin baxış iclası keçirilərkən hakimlər heyəti belə bir qərar qəbul etdi ki, proseslər bundan sonra qapalı keçirilsin.

Bildirək ki, bu iş üzrə zərərçəkmiş tərəflər Vergilər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətidir. İttihama görə, Sahib Ağayevin rəhbərlik etdiyi şirkət 2015-ci ildə Bakıda keçirilən Avropa Oyunları ərəfəsində Milli Təhlükəsizlik Nazirliyinin istəyi ilə təhlükəsizliyin təmin edilməsi məqsədilə xüsusi avadanlıqların gətirilməsi və həmin sistemin qurulmasını həyata keçirib-miş.

İmzalanmış müqavilə şişirdilərək 90 milyon göstərilib. Bu məbləğin 30 milyon manatı Sahib Ağayevin xarici şirkətinin hesabına köçürülüb.

Qeyd edək ki, haqqında danışılan müqavilə Maliyyə Nazirliyi ilə "Main İnvestment LTD" arasında razılaşdırılıb. 90 milyon MTN-in büdcəsinə yatırılıb. Bu məbləğin 30 milyonu Dominikan Respublikasındakı şirkətlərdən birinin bank hesabına köçürülüb. Oradan isə Eldar Mahmudovun oğlu Anar Mahmudovun Latviyanın paytaxtı Riqa şəhərindəki şirkətlərindən birinin hesabına köçürülüb.

Külli miqdarda mənimsəmədə və vergidən yayınmaqda təqsirləndirilən Sahib Ağayev barəsində olan cinayət işində şahid qismində Eldar Mahmudov da dindirilib. Eldar Mahmudovun ifadəsi Musavat.com-da dərc edilib.

Həmin yazı ilə bu linkdən tanış ola bilərsiniz:

https://musavat.com/news/general-eldar-mahmudo-vun-istin-taqa-ifadesi-ilk-defe-yeni-musavat-da_574730.html?d=1Xatırladaq ki, Eldar Mahmudov şahid qismində dindirilərkən ondan 30 milyonun hara "yoxa" çıxması soruşulmuşdu. Amma sabiq nazir suallara cavabında bundan xəbərsiz olduğunu deyib.

Eldar Mahmudovdan oğlunun şirkəti və biznesi barədə də sual verilib. Digər suallara olduğu kimi, Eldar Mahmudov bu suala da "bilmirəm" cavabını verib. O, oğlunun Riqada və digər ölkələrdə bizneslə məşğul olmasından xəbərsiz olduğunu söyləyib.

Amma Musavat.com-un əldə etdiyi məlumatdan bir daha aydın olur ki, Eldar Mahmudov yalan danışıb. Onun bu yalanını şəriki, dostu Sahib Ağayev ifşa edib. Belə ki, Sahib Ağayev istintaqa ifadəsində Anar Mahmudovun bir neçə ofşor şirkətlərinin olduğunu təsdiqləyib. Lakin şirkətlərin sayı və adları barədə dəqiq məlumatının olmadığını deyib.

Sahib Ağayev həmçinin sabiq nazirin oğlunun Bakıda rəhbərlik etdiyi şirkətlər və biznesi haqda da ətraflı danışıb. O, Eldar Mahmudovun adamlarının xarici ölkələrdə kimlər vasitəsi ilə ofşor şirkətlər açması, necə idarə etməsini də izah edib. Sahib Ağayev həmin ifadəsində Mahmudovlarla bağlı maraqlı məqamları da açıb. Bu barədə növbəti yazımızda ətraflı məlumat verəcəyik.

Sahib Ağayev Qazaxıstanda saxlanılaraq Azərbaycana gətirilib. O, Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə, külli miqdarda törədildikdə) və 213-cü (vergidən yayınma) maddələri ilə ittiham edilir.

Xatırladaq ki, S.Ağayev Eldar Mahmudovun iş ortaqlarından və yaxın adamlarından biri olub.

Qeyd edək ki, "yoxa çıxan 30 milyon" işində Eldar Mahmudovun daha bir adamının - Kanada vətəndaşı Kazem Askarinin adı keçir. Eldar Mahmudovla 1998-ci ildən dostluq edən Kazem bu işdə baş roldadır.

Belə ki, Avropa Oyunlarında Azərbaycanda quraşdırılan təhlükəsizlik sistemi məhz Kazemin Kanadadakı şirkətindən alınıb. Kazemin də bu işdəki fəaliyyəti haqda ətraflı məlumat verəcəyik.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

# 5 və ya 7 rayon məsələsi yenidən masaya qayıda bilər - "Mart ayında..."

## Lukaşenkonun sensasion açıqlamalarından çıxan nəticə

**Belarus prezidenti Aleksandr Lukaşenko ilk dəfə olaraq Dağlıq Qarabağ probleminin həlli üçün Ermənistana və Azərbaycana özü tərəfindən edilmiş təklifləri açıqlayıb. Bu barədə Lukaşenko Minskdə rus KİV-ləri ilə görüşü zamanı bildirib. Məlumatı BELTA agentliyi yayıb.**



Prezident deyib ki, Qarabağ məsələsi KTMT-nin İrəvanda keçirilmiş sammitində o zamankı prezident Serj Sərkisyanla müzakirə edilib. Belarus lideri Azərbaycan və Ermənistan prezidentlərini güzəştlərə gedərək bir yerdə problemi həll etməyə çağırıb. Bu zaman Belarus və Rusiya razılaşdırılmış qarantları təmin etmək üçün hərbi kontingenti yeritməyi vəd edib: "Sonra daha açıq dedim: "Qulaq as Serj, onlar demişkən, 7 rayonu işğal etmisiniz. Mən və Putin tarazlaşdırılmış mövqe tutmuşuq. Serj, bu 5 rayonu qaytar. Onları qaytarmamağın səbəbi nədir? Boş ərazilərdir. Serj isə dedi ki, əgər o rayonları qaytarsam, azərbaycanlılar yolu bağlayacaqlar və Qarabağı tutacaqlar. Mən və Putin dəqiq vəd etdik ki, biz öz ordularımızı yeridəcəyik, buna imkan verməriкE O isə dedi ki, yox, biz buna getməyəcəyik, istəmirik".

Lukaşenkonun sözlərinə görə, Sərksiyanın mövqeyi onda böyük təəccüb doğurub: "Niyə istəmirlər? 5 rayon boş əraziyə çevrilib. Bu, birinci addımdır. O zaman Azərbaycan da, Ermənistan da KTMT-də, Avrasiya İttifaqında olardı. Niyə ermənilər imtina elədilər? Yaxşı, Belarus və Rusiya qarant kimi çıxış edirdilər, deyirdik ki, əgər bu beş rayon azad edilsə, orada heç bir müharibə olmayacaq. Siz bu rayonların Azərbaycana aid olduğunu deyirsiniz. Bu ərazi axı Qarabağ deyil".

Lukaşenko münaqişənin sülh yolu ilə həllinin vacib olduğunu qeyd edib: "Dağlıq Qarabağ münaqişəsini Ermənistan və Azərbaycan rəhbərləri həll edə bilər, beynəlxalq vasitəçilər ötən illər ərzində vəziyyətin real nizamlanması üçün heç nə etməyiblər. Minsk Qrupu bu onilliklər ərzində Dağlıq Qarabağla bağlı heç bir şey etməyib və iki prezident oturub, "Gəlin problemi həll edək" deməsələr, vasitəçilər heç nə etməyəcəklər".



Mübariz Əhmədoğlu

Politoloq Mübariz Əhmədoğlu "Yeni Müsavat"a şərhində bildirdi ki, nəinki 5 rayonun, hətta 7 rayonun Azərbaycana qaytarılması məsələsinin danışıqlarda qoyulduğunu iki il öncə Serj Sərkisyan özü etiraf etmişdi: "Onu da bəyan etmişdi ki, məhz Ermənistanın razılaşmaya getməməsi üzündən bu cür həll variantını gerçəkləşdirmək mümkün olmayıb. İndi Belarus prezidentinin açıqlaması bir daha onu sübut etmiş oldu ki, Qarabağ məsələsinin həll olunmasına məhz Ermənistan rəhbərliyinin mövqeyi imkan verməyib. 2016-c ilin aprel döyüşlərindən sonra Serj Sərkisyan "Blomberq"ə verdiyi müsahibəsində, bir neçə gün sonra isə "Əl-cəzirə" telekanalına verdiyi müsahibələrində etiraf etmişdi ki, danışıqlarda 7 rayonun qaytarılması məsələsi olub. Ermənistan ona görə buna razılaşmır ki, onlar öncə Dağlıq Qarabağın statusunun müəyyən edilməsini istəyirlər, sonra 5 və ya 7 rayonun geri qaytarılmasına razı olduqlarını deyirlər. Lukaşenko isə, ümumiyyətlə, cəhd edir ki, Qarabağ problemi həll edilsin. Artıq 5 rayonun geri qaytarılması variantına yenidən qayıdılmasının zamanı deyil. Mərhələli həll variantının ilkin dövrünə qayıtmağın vaxtıdır. Həmin variant ümummilli lider Heydər Əliyevin dövründə işlənib hazırlanıb və uzun müddət bu variant üzərində danışıqlar aparılıb. Həmin varianta görə Dağlıq Qarabağ ətrafındakı 7 rayon Azərbaycana qaytarılır, məcburi köçkünlər öz yurdlarına qayıdır, əvəzində isə Azərbaycanla Ermənistan arasında kommunikasiya və iqtisadi əlaqələr bərpa olunur.

Ermənistanda yeni hökumət formalaşandan sonra Azərbaycan və Ermənistan rəhbərliyi danışıqlara başlamalıdır. Bunu Sergey Lavrov bu günlərdə bildirdi. Yeni Rusiya çalışır ki, Minsk QA-rupunu sıxışdırsın. Ona görə də tənzimlənməni Azərbaycan və Ermənistan rəhbərlərinin üzərinə qoyur. Bunu Aleksandr Lukaşenko da açıq ifadə edib ki, Qarabağ məsələsində Minsk Qrupu heç nəyə nail olmayıb və bu münaqişənin həllini Azərbaycan və Ermənistanın rəhbərləri oturub danışıb həll etməlidirlər. Diqqətçəkən məqam ondan ibarətdir ki, ABŞ da Qarabağ məsələsinin həllinin vaxtının çatdığı mövqeyi ortaya qoyur. Trampın müşaviri Con Bolton bu yaxınlarda bölgəyə səfəri zamanı Ermənistana açıq bildirdi ki, əgər inkişaf etmək istəyirsinizsə, xarici təzyiqlərdən xilas olmaq istəyirsinizsə, Dağlıq Qarabağ problemini həll edin. Bunu Rusiya görür və tələsir ki, Dağlıq Qarabağ məsələsi ilə məhz özü məşğul olsun və tərəflərin razılaşmalara gəlməsi onun vasitəçiliyi ilə baş tutsun. Ona görə də problemin ilkin variantda mərhələli həll planı ilə həll olmağı Rusiyanın xeyirinədir. Azərbaycanla Ermənistan arasında kommunikasiya açılacaqsa, Mehri dəmiryolu açılacaqsa, hesab edin ki, bu, elə Moskva ilə İrəvanın arasında dəmiryolunun bərpası deməkdir".

M.Əhmədoğlu hesab edir ki, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin bu yaxınlarda Milanda görüşündə qeyd edilən mərhələli həll planı üzərində bir ilkin sənəd hazırlanıb: "Məncə gözləyirlər ki, Ermənistanda hökumət formalaşsın, yanvar ayında xarici işlər nazirləri yenidən görüşüb ən uzağı, mart ayına Azərbaycanın prezidenti ilə Ermənistanın baş nazirinin görüşü barədə razılıq əldə edəcəklər. Bununla da çox ciddi bir prosesə start veriləcək".

M.Əhmədoğlu onu da bildirdi ki, Qarabağ bölgəsinə sülhməramlı qüvvələr yerləşdirilməsi məsələsi ilə bağlı Belarus prezidentinin açıqladığı fikirlər isə bir qədər təzadlıdır: "Regionda sülhməramlıların yerləşdirilməsi ilə bağlı iki razılaşma var. Biri ATƏM-in Budapeşt sammitinin qərarıdır. O qərara görə, heç bir dövlət Dağlıq Qarabağ bölgəsində olan sülhməramlıların üçdə birindən artığına sahib ola bilməz və sülhməramlı qüvvələr ən azı, dörd dövlətdən olmalıdır. İkinci qərara görə isə sülhməramlılar Minsk Qrupunun həmsədri olan üç ölkədən heç birinə məxsus olmamalıdır. Eyni zamanda bu qərarda deyilir ki, Ermənistanla Azərbaycanın qonşuları bölgədə sülhməramlı rolunda çıxış edə bilməzlər. Sülhməramlı kontingent kiçik Avropa dövlətlərinin qüvvələrindən ibarət ola bilər. Onlar isə yalnızhərbi müşahidəçilik qismində olmalıdırlar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

# "Arif Əsgərovun oğlu pulları Türkiyədə bir qadında saxlayır" - sensasion gəlişmə

## Elnar Əsgərovun inandığı və oğurladığı böyük vəsaitləri etibar etdiyi xanım kimdir?

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışmış Arif Əsgərovun, onun oğlu Elnar Əsgərovun adı qarışan proses davam edir. Ötən müddətdə üzə çıxanlar ortada böyük korrupsiya cinayətlərinin olmasını bir daha təsdiq edir.**

Məhkəmə qarşısına çıxarılan Arif Əsgərovun baldızı oğlu Rahib Hüseynovdur. Sonuncu dələduzluq ittihamını qəbul etmir, deyir ki, o, xalası oğlu, Arif Əsgərovun oğlu Elnar Əsgərovun "Azərbaycan Dəmir Yolları" QSC-də gördüyü işlərin qeydiyyatını, hesabatını aparıb. Elnar Əsgərov ən müxtəlif şəxslərdən QSC-nin təchizat məsələləri ilə məşğul olmaq adı ilə milyonlarla pul alaraq onlara verdikləri məbləğə görə faizlər ödəyib. Arif Əsgərov işdən çıxarılandan sonra isə pul sahiblərinə faiz ödənişi dayandırılıb, pulların əsas hissəsinin də ödənilməsində problemlər yaranıb. Pul sahibləri hüquq mühafizə orqanlarına şikayət etdikdən sonra Arif Əsgərov milyonlarla manat pulu bacanağı, Rahib Hüseynovun atası İsmayıl Hüseynovun vasitəsi ilə ödəyib. Hazırda pulu ödənməmiş 2 şəxs qalıb - Emin Məmmədov və Qoşqar Zeynalov. Rahib Hüseynovun anası Lətifə Hüseynova "Yeni Müsavat"a açıqlamalarında deyib ki, Elnar Əsgərov pulları adamlardan atasından gizli yığıb, onlara verdikləri pula görə faizləri də gizli ödəyib. Məsələnin üstü Arif Əsgərov işdən çıxarılandan sonra açılıb və Elnar Əsgərov bütün suçu onun oğlu Rahib Hüseynovun üstünə atıb. Milyonlarla pulu Rahib Hüseynovun adamlardan özbaşına yığdığını deyib.

Rahib Hüseynov isə deyir ki, o, xalası oğlu Elnar Əsgərovun adamlardan aldığı pullara görə elə onun göstərişi ilə faizlər ödəyib.

Elnar Əsgərovun milyonlarla manat pulu hara xərcləməsi isə bu günə qədər bilinmirdi.

Redaksiyamıza daxil olan məlumata görə Elnar Əsgərov pulları xaricə aparıb. Onun həmin pulları Türkiyədə Mehriban adında qadında saxladığı iddia olunur. Belə məlumatlar var ki, həmin qadın əvvəllər Bakıda, 5 saylı şəhər klinik xəstəxanasının yanındakı çoxmərtəbəli binada yaşayıb. Onun Novxanıda bağ evi də olub. Həmin bağ evinin əslində Elnar Əsgərova məxsus olduğu xəbəri də var. Qeyd olunur ki, Mehriban adlı qadın həmin evdə Gulya adlı anası və Nərgiz adlı qızı ilə yaşayıblar. Elnar Əsgərovun həmin qadına inamı olduğu deyilir.

Adamlardan yığılan pulların Elnar Əsgərovda olmasını deyən Hüseynovlar onun Türkiyədə əlaqələrinin olmasını təsdiqləyirlər. Deyirlər ki, onun pulları Mehriban adlı qadında saxlaması haqda eşitsələr də, buna dair əllərində konkret fakt yoxdur.

Onlar qeyd edirlər ki, Arif Əsgərovun sürücüsü Vahid və ailəsinin sürücüsü Əbülfəz Novxanıda bağ evləri tikdirməsi haqda məlumatlıdırlar. Bundan başqa Arif Əsgərovun Qubada sabiq müdafiə naziri Səfər Əbiyev və keçmiş nəqliyyat naziri Ziya Məmmədovla qonşuluqda villasının olduğu, Qəbələ, İsmayıllı rayonlarında da dəbdəbəli evlərinin varlığı haqda da məlumatlar var. Qeyd edək ki, vaxtilə normal maddi imkanları olan İsmayıl Hüseynov hazırda müflis durumdadır. Bakıdakı evləri, mal-mülkləri əllərindən çıxıb. Bir oğlu Emin Hüseynov 9 il həbs cəzasına məhkum edilib. 6 saylı cəzaçəkmə müəssisəsində saxlanılır. Digər oğlu Rahib Hüseynov da qeyd etdiyimiz kimi, hazırda hakim qarşısındadır. Eminin və Rahibin işi üzrə ədalətli araşdırma aparılmasını istəyir. Deyirlər ki, Elnar Əsgərova məxsus 20-30 milyon pulun qara mühasibatlıq hesabatı var. Əsas günahkar Elnar Əsgərov azadlıqda gəzir. Qeydlər var, Elnar Əsgərova pul verənlər 5 il faiz alıb.



İttihama görə isə R.Hüseynov adamlardan pul alıb və onlara "Azərbaycan Dəmir Yolları" QSC üçün xaricdən yataq dəstləri gətiriləcəyini, qazancın 20 faizinin onlara veriləcəyini vəd edib. Məhkəmədə Rahib Hüseynov zərərçəkmişlərdən alınan pulları xalası oğlu Elnara verdiyini deyir, sübut kimi əlindəki qeydiyyat kitablarını, səs yazılarını təqdim edir. Ancaq məhkəmədə Elnar Əsgərov şahid, Rahib Hüseynov isə təqsirləndirilən şəxsdir. Artıq dövlət ittihamçısı Rahib Hüseynovun 10 il azadlıqdan məhrum edilməsi ilə bağlı çıxış da edib.

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Rasim Məmmədovun zavodlarında ölən fəhlələrin sayı itib - faktlar

## "Baku Steel Company" MMC-də təhlükəsizlik qaydalarına riayət edilməməsi, fəhlə həyatının nəzərə alınmaması faciələrlə nəticələnir

**"Baku Steel Company" MMC-nin sahibi Rasim Məmmədovun Azərbaycana idxal olunan armaturların keyfiyyətsizliyinə dair şayiələr yaydırmasının ardından onun zavodlarındakı əmək təhlükəsizliyi qaydalarının kobud şəkildə pozulması haqda da faktlar ortaya çıxıb.**




Xəbər verdiyimiz kimi, R.Məmmədov monopoliyanı əldən verməmək üçün PR kampaniyasına start verib. O, tikinti sektorunda ucuzlaşma yaradılmasına mane olmaqla, dövlətin siyasətini sabotaj edir. İrandan Azərbaycana idxal olunan armaturun keyfiyyətsizliyinə dair yalanlar yayır. Həmin materiallarda konkret şirkət adı qeyd olunmasa da, ümumilikdə İrandan gətirilən armaturun keyfiyyət standartlarına cavab verməməsi iddia olunur. (http://musavat.com/news/qoymayin-ustumuze-rasim-gelir-armatur-bazarinda-inhisarci-oyunlari_576997.html)

Müxtəlif ərazilərdə İran məhsulunun tikinti sahəsindəki fotoları verilsə də, armaturun məhz hansı şirkət tərəfindən istehsal edildiyi bildirilmir. Qeyd edək ki, İran armaturları ilə bağlı yayılan materiallara 2016-cı ildə Səudiyyə Ərəbistanında çəkilmiş bir video da əlavə olunur. İranın "Saba Steel" şirkətinin etiketinin də nümayiş olunduğu videoda bir nəfər yoğun armaturu əlində qaldırıb betona çırpır və armatur asanlıqla sınır. Kiçik araşdırmadan sonra aydın olur ki, həmin video Səudiyyə Ərəbistanı ilə İran arasında münasibətlər kəskinləşən zaman məqsədyönlü şəkildə hazırlanıb və İran məhsulunu gözdən salmağa hesablanıb...

Bəs Rasim Məmmədovun özünün idarəçiliyində olan zavodlarda vəziyyət necədir? Buna dair kiçicik bir dəqiqləşdirmə aparanda aydın oldu ki, onun zavodlarında fəhlələrin ölümü adi hal alıb. Son belə hadisə Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodunda baş verib. Olay zamanı Yasamal rayon sakini 1991-ci il təvəllüdlü Fərhad Mətləb oğlu Quluzadə dünyasını dəyişib. Qeyd olunur ki, fəhlənin ölümü zavodda texniki təhlükəsizlik qaydalarına riayət olunmaması üzündə baş verib. Gəncin meyiti aidiyyəti üzrə təhvil verilib. Hazırda olayla bağlı Sumqayıt Prokurorluğunda araşdırma aparılır. Qeyd edək ki, Rasim Məmmədovun rəhbərlik etdiyi zavodlarda zaman-zaman fəhlələrin məhz texniki təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən bədbəxt hadisələr qeydə alınıb.

2014-cü ildə Rasim Məmmədovun rəhbərlik etdiyi "Baku Steel Company" MMC-də 1985-ci ildə Qadir Akif oğlu Qafarovun ölümü ilə nəticələnən olay baş vermişdi. Araşdırmalar zamanı məlum olmuşdu ki, o, hündürlükdən yıxılaraq dünyasını dəyişib. Elə həmin il yenə də "Baku Steel Company" MMC-də ölümlə nəticələnən olay qeydə alınıb. Oksigen sexində qaz balonu partlayıb. Nəticədə xəsarət alan sex rəisi, Sumqayıt şəhər sakini Rasim Hüseynov xəstəxanaya aparılarkən yolda ölüb, oranın işçiləri - Bakı şəhər sakinləri Sahil Bayramov və Zəfər Ağayev xəstəxanaya yerləşdiriliblər. Faktlarla bağlı Nərimanov Rayon Prokurorluğu tərəfindən hər dəfə Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizə qaydalarını pozma - ehtiyatsızlıqdan ölümə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, gəlinən nəticə haqda ictimaiyyətə hər hansı bir açıqlama verilməyib.

2 il sonra həmin zavodda daha dəhşətli olay baş verib. "Baku Steel Company" zavodunda istehsalat zamanı partlayış baş verib. Nəticədə 5 nəfər xəsarət alıb. Həmin şəxslər zavodda işləyənlər - Sumqayıt şəhər sakini, 1951-ci il təvəllüdlü Ələsgər Ələsgərov, Masallı rayon sakini, 1970-ci il təvəllüdlü Elsevər İbadullayev, 1971-ci il təvəllüdlü Məmməd Kərimov, Şabran rayon sakini, 1959-cu il təvəllüdlü Nüsrətdin Səfərov və 1982-ci il təvəllüdlü Natiq Salmanov idi. Həmin faktla da bağlı Nərimanov rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 162.1-ci (əmək mühafizəsi qaydalarını pozma) maddəsi ilə cinayət işi başlanmışdı. 2016-cı ildə "Baku Steel Company" MMC-də çalışan bir qrup işçi adından həmin ölüm olayları, partlayışlarla əlaqəli "Təzadlar"a müraciət təqdim edilib. Materialda bildirilib ki, "Baku Steel Company" MMC-də 2014-cü ilin sentyabrın 15-də də oxşar partlayış olmuşdu. Sitat: " Hətta ölənlər də olmuşduE Məsələ ondadır ki, monopolistlər, rəqabətsizlik, iş prosesinin (iş şəraitinin, malın, xidmətlərin) keyfiyyətinin səviyyəsini sovet dövrü səviyyəsinə endirir (uzaqdan onun "reklam"ı nabələdlər və yaltaqlar üçün təmtəraqlı görsənsə də). Sirr deyil ki, Azərbaycanda zor gücü ilə "dəmir" monopolisti olan "Baku Steel Company" MMC rəhbəri olan Rasim Məmmədovu çoxdan, uşaqlığından tanıyırıq. Onun necə xarakterə malik olduğunu hamımız bilirik. Onun kimilər üçün hansısa "axmaq fəhlələr" sadəcə "işçi qarışqa" və "qapazaltı zümrə" kimi bir şeydir. Onların nə qədəri ölsə də, mənası yoxdur. O, gündüz həmin ölülərin yasına da gedə bilər, axşam isə... Hətta ölənləri söyə də bilər, çünki..."

Rasim Məmmədovun da mövqeyini dərc etməyə hazırıq.

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

## 2019-cü ilə problemli kreditlərlə gedirik: həll yolu nədir?

**Ekspert:** "Cəzalarla, məhkəmə qərarları ilə problem həll olunmayacaq"



**Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği yüksək olaraq qalır. Problem 2018-ci ildə həll edilmədi. Bəs 2019-cu ildə məsələ ilə bağlı nələr baş verəcək?**

Noyabr ayına olan rəsmi məlumatlara görə ilin əvvəlinə nisbətən vaxtı keçmiş kreditlər 4,4% artıb, ötən il noyabrın 1-nə nisbətən isə 10,1% azalıb. Oktyabrın sonuna problemli kreditlərin ümumi kredit portfelində payı 13,8% təşkil edib. Bu nisbət sentyabrın sonuna 14,2%, ötən ilin sonuna 13,8%, ötən il oktyabrın sonuna isə 15,5% təşkil edib.

"Yeni Müsavat"a danışan iqtisadçı Natiq Cəfərli bildirdi ki, problemli kreditlərlə bağlı hazırda iki önəmli məsələ var: "Birincisi odur ki, Azərbaycan rəsmi statistikası problemli kreditləri, ümumi kredit portfelinin 16 faizi kimi göstərir. Əslində bu da çox böyük rəqəmdir. Çünki dünyada problemli kreditlər ümumi kredit portfelinin 3 faizini keçdiyi zaman bu, bank sektorunda böyük təlatümlərin olmasının göstəricisi kimi qəbul olunur. Dərhal da yeni proqramlar qəbul olunur ki, bu vəziyyət düzəldilsin. Rəsmi rəqəmlərə görə, bizdə problemli kreditlərin həcmi dünya normalarından 5 dəfədən də artıqdır. Beynəlxalq reytinq agentliklərində isə bu rəqəm bizdəkindən fərqlidir. Ən az rəqəmi 20 faiz olmaqla "Fitch" göstərib. Ən yuxarı rəqəm isə "Moodys"də qeyd olunub ki, bu da 30 faiz təşkil edir. Ümumilikdə demək olar ki, real rəqəmlər rəsmi rəqəmlərdən yüksəkdir. Çünki onların hesabatları birbaşa banklardan aldıqları məlumatlara görədir. Bu baxımdan hesab edirəm ki, bu sahədə ciddi statistika problemi var ki, buna nəzər salmaq lazımdır. Problemi həll etmək istəyiriksə, onun diaqnozunu qoymaq lazımdır. Diaqnoz qoymaq üçün də əlimizdə kifayət qədər real göstəricilər olmalıdır. İkinci problem odur ki, hökumət bu sahədə addım atmaqda çox gecikdi. Birinci devalvasiyadan sonra, yəni dollar 1.5 AZN olduğu zaman dərhal qərar verilməli idi. Mərkəzi Bank, hökumətlə birlikdə problemli kreditlərin yenidən nəzərdən keçirilməsini düşünməli idi. Bu xüsusda banklarla köhnə məzənnə ilə kreditlərin qaytarılması istiqamətində banklarla müştərilər arasında vasitəçi rolu oynanılmalı idi. Lakin bu, baş vermədi və ardınca ikinci böyük devalvasiya gəldi. Nəticədə dollar 1.55 AZN olduqdan sonra problemli kreditlərin həcmi də sürətlə artmağa başladı. Bu gün isə nə qədər səsləndirilməsə də biz artıq 3-cü devalvasiya dönəmində yaşayırıq. Bu da dolların 1.7 AZN olan dövrüdür. Yəni ikinci devalvasiya ilə hazırkı məzənnənin arasında 15 qəpik fərq var ki, bu da əslində kifayət qədər böyük rəqəmdir. Sabitlik dönəmində problemli kreditlərin həcmi isə daha da artmağa başladı. Nə qədər acınacaqlı olsa da bu gün məhkəmə sistemində bankla müştərilər arasında olan çəkişmələr, ümumi məhkəmə yükünün az qala 70 faizinə çatır. Yəni 10 minlərlə işlər məhkəmələrə göndərilib və araşdırmalar aparılır".

Ekspert bunu problemdən çıxış yolu saymır: "Yəni cəzalarla, hər hansı böyük həcmdə məhkəmə qərarları ilə məsələ həll olunmayacaq. Nə vətəndaş bu yükün altına tək girə bilir, nə də banklar təkbaşına problemi həll etmək gücündədir. Burada artıq dövlətin müəyyən addımlarına, proqramlarına ehtiyac yaranıb. Dövlət də addım atmaq fikrində deyil. Ona görə problemli kreditlərin həcmi getdikcə artıq. Hesab edirəm ki, gələn il də bu tendensiya davam edəcək. 3 il öncə təklif etmişdik ki, məsuliyyətin 3 yerə bölünməsi prinsipi olsun. Yəni problemli kreditlərin şişməməsi üçün 33 faiz dövlətin, 33 faiz bankların, 33 faiz də vətəndaşın üzərində yükün olmasını təklif etmişdik. Ancaq təəssüf ki, bu təklif qəbul olunmadı. İndi isə artıq bu addım belə, gecikmiş olacaq. Çünki artıq vətəndaş 33 faizi də üzərinə götürmək gücündə deyil. Ona görə də dövlət bank sistemini sağlamlaşdırmaq istəyirsə, gec-tez problemlinin həlli ilə bağlı ciddi addımlar atmalıdır. Bu addımlar gec atılacaqsa, problem hökumətə, büdcəyə də bir o qədər baha başa gələcək. Yəni daha çox vəsait xərclənməli olacaqlar. Ay, il keçdikcə, problemli kreditlərin üzərinə gələn faizlər də artır. Məbləğ olaraq borc şişir. Əgər bu gün problemli kreditlərin həcmi 2 milyarda çatıbsa, gələn ilin sonunda bu, daha 30-40 faiz artacaq. Yəni problemli kreditlərin həllinin gecikməsi, hər il vətəndaşın, bank sisteminin çiyninə əlavə yük qoyur".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Azərbaycanın AES-ə ehtiyacı yoxdur"

## Əli Məsimli: "Bir-iki milyard kubmetr qaza qənaət üçün ölkəni risk altına qoymaq olmaz"

**Son günlər Rusiyanın "Rosatom" dövlət korporasiyasının Azərbaycanda Atom Elektrik Stansiyasının (AES) tikintisi də daxil olmaqla nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq təklif etməsi barədə müzakirələr gedir. "Rosatom"dakı mənbə qeyd edib ki, Azərbaycanda nüvə sənayesi var, amma atom elektrik stansiyası yoxdur. "Rosatom" təklif verib, Azərbaycan tərəfi düşünür.**

Bu mövzuda deputat, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli ilə danışdıq.

***- Əli bəy, Rusiyanın dövlət korporasiyası Azərbaycanda Atom Elektrik Stansiyasını tikmək istəyir. Hazırda Türkiyədə AES tikən Rusiyanın Azərbaycan marağı hardan irəli gəlir?***

- Azərbaycanda AES tikilməsi təklifləri təzə məsələ deyil. Hələ Sovetlər Birliyi dönəmində SSRİ Nazirlər Soveti Azərbaycanda AES tikilməsi barədə qərar qəbul etmiş, müvafiq layihə və texniki-iqtisadi əsaslandırmalar hazırlanmış və bu işin Nəvai qəsəbəsi tərəfdə həyata keçirilməsi istiqamətində ilkin hazırlıq işləri də başlanmışdı. Lakin 1986-cı ildə Ukraynada Çernobıl AES-də baş verən qəza Azərbaycanda Atom Elektrik Stansiyası tikilməsi işini dayandırdı və həmin qəzadan 5 il sonra SSRİ-nin dağılması isə bu məsələni tamamilə gündəmdən çıxardı. Bir neçə ildir ki, Rusiyanın Azərbaycanda AES tikməsi barədə söhbətlər gedir. Fikrimizcə, Rusiyanın "Rosatom" dövlət korporasiyasının Azərbaycana AES tikintisi də daxil olmaqla nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq təklif etməsi hələ o demək deyil ki, Rusiya mütləq Azərbaycanda AES inşa edəcək. AES inşası çox mürəkkəb, xeyli tədqiqatlar aparılan və uzun çəkən prosesdir. Eyni zamanda, AES inşa bahalı olmaqla yanaşı, həm də yaxşı gəlir gətirən layihələrdəndir. Bununla yanaşı, AES tikintisi həm də strateji məsələdir. Ona görə də bu sahədə ixtisaslaşmış ölkələr, xüsusən də ABŞ, Fransa, Yaponiya, Rusiya yüksək qazanc və həm də strateji effekt götürməkdən ötrü AES tikintisi ilə bağlı müxtəlif ölkələrə müraciət edir.

***- AES tikintisi kifayət qədər bahalı layihədir. Sizcə, Azərbaycan razılıq versə, nə qədər vəsaitindən keçməli olacaq?***

- Azərbaycanda AES tikintisi və layihənin əsas parametrləri barədə rəsmi məlumat yoxdur. Olan məlumatlar isə onun dəyəri barədə dəqiq fikir yürütməyə imkan vermir. Ona görə də hələlik elmi-tədqiqat məqsədilə bir reaktordan və 3 milyard dollarlıq layihədən söhbət getsə də, bu da dəqiq məlumat deyil və əlavə araşdırmalara ehtiyac var. AES-in tikilməsinin dəyəri reaktorun gücü, avadanlığın hardan alınmasından, maliyyələşdirmə mənbələri və şərtlərindən və sair bu kimi amillərdən asılı olaraq, bir reaktorun qiyməti 2 milyard dollardan 5 milyard dollara qədər dəyişə bilir. Məsələn, Rusiyanın Belarusda tikmək istədiyi AES-in dəyəri 6 milyard dollar dəyərləndirilir, digər xərclərlə birlikdə isə bu rəqəm 9 milyard dollara da qalxa bilər. Bundan ötrü Rusiya Belarusa kredit dəstəyi də vermək istəyindədir. AES Özbəkistana 11 milyarda dollar başa gələcək, amma şərtlər tam açıqlanmır. Rusiyanın Türkiyədə tikdiyi AES-in dəyəri 20-22 milyard dollar arasında dəyərləndirilir və sair.

***- Dünya təcrübəsinə istinad etsək, Atom Elektrik Stansiyasının hansı üstünlükləri var? Müsbət tərəfləri ilə yanaşı, AES-in fəlakətli tərəfləri də var...***

- AES-in rolu olduqca şişirdilir. Dünya miqyasında AES-lərdə elektrik enerjisinin istehsalı payı artıq psixoloji cəhətdən əhəmiyyətli hesab oluna bilən həddən aşağı enib, yəni onun qlobal elektrik istehsalına olan töhfəsi XX əsrin 80-ci illərdəki 18 faizlik pik nöqtədən 10 faiz ətrafına enib və getdikcə azalacaq. Yaponiyada 2011-ci ilin mart ayında güclü zəlzələ və bunun ardından təqib edilən sunami nəticəsində Fukusimada baş verən faciədən sonra AES-lərə münasibət dəyişir. Dünya miqyasında fəaliyyəti qapadılan nüvə reaktorlarının sayı qurulan reaktorların sayından iki dəfə çoxdur. Yaponiyada isə 330 yeni reaktor quraşdırmaq planı var idi. Onun yalnız 42-si tikildi. Realda isə cəmi 4-ü işləyir. Yaponiya hökuməti Fukusima faciəsinin maliyyə itkiləri xərclərini 193 milyard ABŞ dollarına qədər qiymətləndirir. Bir sıra ekspertlər isə zərərin bundan qat-qat çox olduğunu deyirlər. Almaniya öndə getməklə Qərb artıq AES-dən imtina etmək meyli götürüb. Almaniyanın və İsveçrənin ardınca digər Qərb ölkələri də AES-dən istifadə dairəsini daraldacaq.

***- Azərbaycan kimi ölkənin Atom Elektrik Stansiyasına ehtiyacı nə dərəcədədir?***

- AES inşası, infrastruktur yaradılması və ona xidmət milyard dollarla, bir sıra hallarda isə on milyard dollarla vəsait tələb edir. Rəsmi açıqlamalara görə, hazırda Azərbaycanın 2,6 trilyon kubmetr dəqiqləşdirilmiş çıxarıla bilən qaz, 1,5 milyard ton çıxarıla bilən neft-kondensat ehtiyatı, proqnoz ehtiyatlarını da nəzərə alsaq, Azərbaycanda 6 trilyon kubmetr qaz və 4 milyard ton neft ehtiyatı var. İndiyə qədər dünya bazarına çıxarılan neftin həcmi 482 milyon ton olub. Azərbaycanda karbohidrogen ehtiyatlarının kifayət qədər böyük olması, ölkəmizin seysmik cəhətdən təhlükəli zonada yerləşməsi, Azərbaycanın bərpa olunan enerji mənbələrindən istifadə imkanlarını çox geniş olması, AES-in tikintisinin, hökumət üçün həmin stansiyaya qurğu, avadanlıq, xammal, texnoloji xidmətlər, tullantıların xaric edilməsi və sair sahələrdə xidmət göstərə biləcək ölkələrə müraciət etməyə məcbur etdiyindən, onlardan asılı vəziyyət yaradacağı və sair bu kimi amilləri nəzərə alaraq, demək olar ki, hazırda Azərbaycanda AES inşasına ehtiyac yoxdur.

Hələ müfəssəl məlumat yoxdur ki, Azərbaycanda AES tikintisi hansı sxem üzrə həyat keçirilməsindən söhbət gedir. Azərbaycanın maliyyə imkanları yüksək olduğundan, böyük ehtimalla xərcləri də Azərbaycanın özü qarşılaması variantına üstünlük verilə bilər. Strateji effekti isə Rusiya götürəcək. Çünki AES vasitəsilə Rusiya Azərbaycanın əsas strateji sahəsi olan energetika sektoruna və deməli, energetika bazarına girə bilər. Yaponiyada AES-də baş verən qəza göstərdi ki, AES-nin lehinə söylənilən "yeni texnologiyalar təbii fəlakətlərdən tam sığortalamağa imkan verir" məsələsi həqiqəti əks etdirmir. Nüvə enerjisi çox riskli bir texnologiyadır. Bir-iki milyard kub metr qaza qənaət etməkdən ötrü ölkəni ekoloji təhlükə altına qoymaq normal məntiqə sığan bir şey deyil. Heç bir müasir texnologiya AES-də qəzaya 100 faiz qarantiya verə bilməz. AES-də qəzanın olmayacağına 100 faizlik qarantiyaya-yalnız AES tikməməklə nail olmaq olar. Təcrübə göstərir ki, nüvə elektrik stansiyaları alternativ enerji mənbələri ilə əvəz edilə bilər. Ona görə də hələlik Azərbaycanın nüvə enerjisindən dinc məqsədlərlə istifadə üzrə bu sahədə öndə gedən ölkələrlə, o cümlədən Rusiya ilə əməkdaşlıq etməsi daha çox elmi tədqiqatlar istiqamətində aparılması məqsədəuyğundur.



"Heç bir müasir texnologiya AES-də qəzaya 100 faiz qarantiya verə bilməz"

***- Sizcə, Rusiyanın bu layihəni reallaşdırmaq istəyinə Qərb necə yanaşacaq? Fakt budur ki, şimal qonşumuz ABŞ və Avropanın sanksiyaları ilə üz-üzədir və Rusiyanın Azərbaycanın hesabına əlavə milyardlar qazanması müsbət qarşılanmaz. Elə deyilmi?***

- Əslində AES məsələsi hələ yalnız təklif olduğundan, Qərb bu məsələni dəqiqləşdirməmiş reaksiya verməz. Hələlik ekspertlərin dili ilə müəyyən mülahizələr ola bilər və var. Ortada konkret bir iş olsa və Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalara düşən məqamlar aşkarlansa, onda təbii ki, həmin məsələlər üzrə daha konkret reaksiyalar ola bilər. Ümumilikdə isə məncə, son illər bu məsələ dövriyyədə olsa da, onun AES hissəsi yaxın zamanlarda reallaşan məsələyə oxşamır.

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

# "Şuşada ölmək istəyirəm"

## **Bayram Səfərov:** "Bayramın mürgüləməyini yazmaq lazım deyil e, yazan oğlan!"

**"Baxış bucağı"**

**Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Bayram Səfərov "Yeni Müsavat"a geniş müsahibə verib. İcma başçısı budəfəki müsahibəsində Qarabağ ətrafındakı vəziyyət, Ermənistan hakimiyyəti ilə Qarabağ klanı arasındakı qarşıdurma mühitinin perspektivləri ilə yanaşı, özü ilə bağlı mətbuatda vaxtaşırı yer alan tənqidi yazılara da ilginc reaksiya verib, onu hədəfə alanlara çağırış edib. Müsahibəni sizə təqdim edirik:**

***- Bayram müəllim, bu günlərdə Qarabağ klanı ilə Ermənistan hakimiyyəti arasında gərginlik, ixtilaf mövcuddur. Siz bu gərginliyin sonunu necə görürsünüz?***

- Erməni ermənidir. Fərqi nədir, Qarabağ ermənisi, ya Ermənistan ermənisi? Gözləməyin ki, onlar sonda nəyisə güzəştə gedəcək. Onların hakimiyyətinin taleyinin necə olacağını da demək çətindir. Bako Saakyan oyuncaq hakimiyyətin "başçısı"dır. Məntiqlə Paşinyan Qarabağ separatçılarının rəhbərliyini dəyişib özünə xidmət edən adamları gətirməlidir. Bundan əlavə, Serj Sərkisyan, Robert Köçəryan və Saakyanın adamları öz cinayətlərinin ört-basdır edilməsi üçün mübarizə aparacaqlar. Əli çoxsaylı insanın qanına batmış adamlar əlbəttə, istəyirlər ki, hakimiyyətdə olsunlar və toxunulmazlıqları olsun. Bu cinayətkarlar təkcə Xocalıda 613 günahsız insanımızı qətlə yetiriblər. Qaradağlı, Meşəli, Cəmilli kəndlərini...Cinayətlər törədilmiş kəndləri saymaqla bitmir. Bizim 25 min insanımız öldürülüb, əsir-girov götürülüb.

***- Bir çoxları hesab edir ki, 90-cı illərdə Azərbaycanda yaşanan gərginlik bu gün Ermənistanla Qarabağ separatçıları arasında yaşanır...***

- Bəli. Mən də hesab edirəm ki, hazırda Ermənistandakı vəziyyət Azərbaycanın 28-30 il bundan qabaq düçar olduğu vəziyyəti xatırladır. Çox şükür ki, biz onları 28-30 il qabaqlamışıq. Bu gün Azərbaycanın stabilliyi, regionun lider dövləti olması, güclü ordu qurması, iqtisadiyyatının inkişafı, prezidentin insan kapitalına böyük önəm verməsi, vətəndaşlarımızın neft asılılığından azad olması üçün atılan addımlar göz önündədir. Amma Ermənistanda fəlakətli vəziyyət hökm sürür. Əgər Paşinyan işğaldan əl çəkəcəksə, xalqın sosial durumunun yaxşılaşdırılması üçün addımlar atacaqsa, xalqın da rəğbətini qazanacaq. Amma verdiyi vədlərə əməl etməsə, Paşinyanın taleyi əvvəlkilərdən betər olacaq. Çünki onun dövlətçilik, idarəetmə təcrübəsi yoxdur.

***- Ermənilər 90-cı illərdə fürsətdən yararlandılar. Sizcə, Azərbaycan indiki durumda hansı mövqe tutmalıdır, hərəkətə keçib torpaqlarını azad etməlidirmi?***

- Heç bir halda mən istəmərəm ki, müharibə olsun. Möhtərəm prezidentimiz də həmişə deyir ki, çalışaq, məsələni sülh yolu ilə həll edək. Mən də müharibə istəmirəm. Niyə? Mən Şuşadan elə bir ailə tanımıram ki, o, Qarabağ müharibəsindən zərər görməsin, əzizini itirməsin, maddi, mənəvi zərbə almasın. Müharibə fəlakətdir, insan ölümüdür, dözülməz bir şeydir. Amma eyni zamanda düşünürəm ki, bizim torpaqlarımızın azadlığı üçün son sözü Azərbaycan əsgəri deyəcək. İndi erməninin ağlı olsa, onun ağsaqqalı-qarasaqqalı varsa, kilsəsi, o birisi-bu birisi oturub düşünsünlər ki, bunlardan oyuncaq kimi istifadə olunur. Bəzən özləri də yazırlar ki, biz onlar üçün oyuncağıq, girovuq. Ona görə də Paşinyan hakimiyyəti işğaldan əl çəksə, Azərbaycana, möhtərəm prezidentimizə müraciət etsə, Cənubi Qafqazdakı bütün iri layihələrdən yararlana bilər. Hansı ki, onlar bütün bu layihələrdən qıraqda qalıblar. Bunlar bilməlidirlər ki, Azərbaycan prezidenti cənab İlham Əliyevin razılığı olmadan Ermənistan Cənubi Qafqazda heç bir layihədə yer ala bilməyəcək.



**"Lap məni orda güllələyəydilər, indi sözlərimi pis yozanlar var e, onların hansısa biri mənim ailəmə bir "buxanka" çörək verəcəkdimi?"**

***- Bayram müəllim, erməni saytlarını izləyirsinizmi?***

- Çox az. Bilirəm də nə yazırlar, nə yazacaqlar. Erməni başqa nə yazacaq ki?

***- Yazırlar ki, Talış kəndində tikinti işləri gedir, gələn il Qarabağda 500 ev tikiləcək, bu qədər vəsait ayrılıb, nar bağı salınıb...***

- Bunlar erməni təxribatıdır. İkincisi də nar bağı salmaq nə çətin şeydir ki? 5 hektar salmasın, lap 50 hektar salsın. Azərbaycan 50 min hektar əkin əkir, o da 5 hektar. Budur inkişaf? Onların əkdiyi, becərdiyi onsuz da bizimdir. Qalacaq bizə. 500 ailə gəlib Qarabağda yaşayacaq?

***- Gəlməyəcək?***

- Xeyr! Ermənistan və Qarabağdan miqrasiya olmasaydı, sizin dediklərinizlə razılaşardım. Adamlar köçüb gedir. Bütün gənclər oranı tərk edir, orduda xidmət etməyə adam tapmırlar. Onlar dəlidir gəlsin burada yaşasın? Ermənilərin ən pis yaşayanı Rusiyadadır. Avropada, Amerikadakı ermənin geri qayıdacaq?

***- İcma araşdırıbmı ki, bu gün Qarabağda nə qədər erməni yaşayır?***

- Yox, biz onu araşdıra bilmərik, bu, imkanımız daxilində deyil. Mənim erməni ilə əlaqəm yoxdur. Sadəcə, erməni özünə sərf edən informasiyanı yayır.

***- Yazırlar ki, Qarabağda əhalinin 21 faizi kasıblıq həddində yaşayır...***

- 21 faiz olmaz e, 90 faiz olar. Mən Qarabağın ən gözəl yerində, Şuşada yaşamışam. Qarabağa gediş-gəliş olmasa, turist gəlməsə, orada erməni nə ilə dolanacaq, necə yaşayacaq? Orda zavod-fabrik, iri şirkətlərmi var?

***- Sonuncu dəfə icmanın ofisinə beynəlxalq təşkilatlardan kimlər gəlib?***

- Keçən ay ATƏT-in Minsk Qrupunun həmsədrləri və Avropa İttifaqından nümayəndələr gəlmişdilər. Görüşdük, söhbətləşdik. Bizi dinlədilər, suallarımızı verdik. Həmsədrlərdən nə gözləyək? Onların biri Fransadır, bu gün başı özünə qarışıb. Torpağımı işğal edən Ermənistanda da müsibətdir. Rusiya və ABŞ da bir-birini qırır, hələ nə olacaq, bilinmir. Onlar üçün, dünya üçün Qarabağ məsələsi əsas məsələ deyil. Bayaq ona görə dedim ki, istəmərəm müharibə olsun, amma son sözü ordumuz deyəcək. Torpağı ayrı cür azad etmək mümkün deyil.

***- Sizin bundan əvvəlki müsahibəniz səs-küyə səbəb oldu, sosial müzakirələrdə haqqınızda xeyli yazıldı...***

- Hə. 1992-ci ildə mənim iki qardaşım mayın 8-də Şuşadan çıxıb. Bu, həqiqətdir, camaat da bilir. Bacım da ayın 8-də orda olub. Hətta mənim kiçik qardaşım mənə sonra dedi ki, istədim bacımı - adı Sərfinazdır - güllələyim, erməniyə əsir düşməsin. Allaha and olsun, belə dedi. Kiçik qardaşım həmin gün qalmışdı, o biri qardaşım Kamil gəlmişdi. Mən onu çox danladım ki, sən nə təhər onu qoyub gəlmisən?

***- Bir sıra adamlar dedi ki, Bayram Səfərov ancaq öz ailə üzvlərini düşünüb...***

- Onu deyənlər o şüurun sahibidir. Təbii ki, mən o niyyətlə deməmişəm. Yaxşı, lap Bayram Səfərovun bütün yeddi arxa dönəni hamısı sinəsini versin erməninin gülləsinin qabağına ki, "gəl, güllələ!" Mənim erməninin qarşısına çıxmağa silahım, sursatım, əsgərim, köməyim yox, mən orda qalmaqla orda nə edəcəkdim? Rusiya ordan, Ermənistan burdan. Adicə düşünəndə adam dəhşətə gəlir. Lap məni orda güllələyəydilər, indi sözlərimi pis yozanlar var e, onların hansısa biri mənim ailəmə bir "buxanka" çörək verəcəkdi? Qeyrəti olan oğlan elə düşünməz! Mən xalqımı və torpağımı heç kimdən az istəmirəm. Torpağını, millətini, dövlətini çox istəyən adamlarla da yarışa girirəm. Bütün həyatım boyu xalqıma xidmət eləmişəm, özü də təmiz, kişi kimi!

***- Maraqlıdır, niyə sizinlə bağlı vaxtaşırı müzakirələr açılır, hansısa sözünüz, hərəkətiniz, ya müşavirədə yuxuya getməyiniz geniş diskussiyalara səbəb olur? Bunun səbəbi sizə məlumdurmu?***

- Yəqin ki, maraqlı adamlar var. Həm də ola bilər məndən xoşu gəlməyən operator, ya hansısa jurnalist çəkib yayır. Elə möhtəşəm məclisdən o cür görüntü yayan jurnalist, lap elə onları ora buraxanlar da günahkardır.

***- Yəqin yorğun imişsiniz...***

- Deyə bilmərəm. Allaha and olsun, bilmirəm o anda yatmışam, ya yox...(gülür) Orda projektorlar çox güclü idi, gözümə düşürdü. Mən ya əlimi gözümün üstünə qoyurdum, ya da gözümü yumurdum. Təbii ki, olmamalıydı. Amma onu o cür işıqlandırmaq... Həmin adamın qanı təmiz deyil. Ani yuxu hamıda ola bilər. Özü də orda tək mən yatmamışdım ki. Məndən başqa o qədər yatanlar var idi, niyə onları vermir, məni verir? Əgər qərəzli deyilsə...

***- Uzun illərdir iki vəzifəni icra edirsiniz. Ağır deyilmi?***

- Ümumiyyətlə, mən həyatda heç nəyə asan nail olmamışam. Həyatım həmişə hay-lı-huylu, səsli-küylü olub. Şuşa əhalisinin hamısı məni tanıyır. Hamı da bilir ki, mən alnıaçıq, zəhmətlə, əziyyətlə böyümüşəm. Tanıyanlar bilir ki, biz zəhmətkeş ailə olmuşuq. Uşaqlarımız hamısı təhsil alıb, hamımız da xalqımıza çox səmimi, sədaqətlə xidmət etmişik. Mən də, qoçaq deyim, cəsarətli deyim, ya cürətli deyim, bilmirəm, tapşırılan vəzifələrin öhdəsindən gəlməyə çalışmışam. Heç vaxt mənə verilən tapşırığı icra edib qurtarmayana qədər sakitləşməmişəm. Heç vaxt istəməmişəm ki, məndən yuxarıdakı rəhbərlərin mənə qınağı olsun. Çalışmışam ki, onların yanında üzüm həmişə ağ olsun. Bir halda ki, mənə tapşırıq verilir, onu icra etməliyəm. Hamının ehtiyacını ödəmək mümkün olmur axı. Dünyanın heç yerində qaçqın-köçkünlərə bu qədər diqqət, qayğı yoxdur.

***- Bayram müəllim, Bakıda Şuşa qəbiristanlığının olması faktı sizə necə təsir edir? Bildiyimizə görə, əmanət qəbirlər də var...***

- Bəli, bu, dünyanın ən böyük ədalətsizliyidir. Şəxsən tanıdığım adamlar var, vəsiyyət edib ki, məni burda müvəqqəti basdırın, torpaqlar azad olunandan sonra aparарsınız Şuşaya.

***- Allah uzun ömür versin! Bəs, siz necə, heç o barədə düşünmüsünüzmü?***

- Mənə qalsa, mən Şuşada ölmək istəyirəm. O da Allah-təalanın əlindədir. Əlbəttə, mən Şuşanı azad görüb, orda ölmək istəyirəm. Mən o günə inanıram. Bir zamanlar bizim ölkəmiz nə kökdə idi? Bu gün Azərbaycandakı sabitlik ən böyük sərvətimizdir. Baxın, İran, Ermənistan, İraq, Suriya, qardaş Türkiyə, Rusiyanın özündə sabitlik varmı? Azərbaycanda bu sabitliyi, bu sakitliyi bərqərar edən cənab prezident İlham Əliyevdir. Eyni zamanda biz hamımız ulu öndər Heydər Əliyevə bugünkü sabit ölkədə yaşamağımıza, uşaqlarımızın rahat təhsil almasına, dolanışığımıza görə minnətdar olmalıyıq. Hamımıza da minnətdarıq. Cənab prezidentimiz ilk dəfə prezidentliyə namizədliyini verəndə görəcəyi işlərdən bəhs etmişdi. Mən növbəti dönəmdə baxım ki, orda əksini tapan bütün məsələlər artıqlaması ilə həllini tapıb, bir dənə Dağlıq Qarabağın işğaldan azad olunmasını çıxmaq şərtilə. Bu məsələ isə tək Ermənistan-Azərbaycan məsələsi deyil. Bu, heç Rusiya-Ermənistan-Azərbaycan, ya Belarus-Rusiya-Ermənistan-Türkiyə-Azərbaycan məsələsi deyil. Bu məsələdə artıq bütün Avropa, Amerikanın, bütün dünyanın marağı var. Həm də unutmayaq ki, biz müsəlmanıq, bizi həmişə nələrəsə bağlayırlar. Ancaq gəlib bizim ölkəmizi görəndən, xalqımızı tanıyandan sonra çoxlarının fikri dəyişir. Ona görə də tək məmurlar yox, bütün vətəndaşlarımız o qədər ideoloji işlər aparmalıdır ki, o qədər yazı-pozu ilə məşğul olmalıdır... Bayramın mürgüləməyini yazmaq lazım deyil e, yazan oğlan! Əgər həmin adamın qanında vətən, millət sevgisi varsa, o mövzulardan yazsın. Yazsın ki, Azərbaycan gözəl ölkədir, xalqı gözəl xalqdır. Azərbaycan xalqının tək qüsuru odur ki, bir-birinin qədrini bilmir.

***- Bayram müəllim, siz niyə icma rəhbəri kimi xarici ölkələrə səfər etmirsiniz?***

- Biz çox iş görürük. Getməklə iş bitmir ki.

***- Hər halda Qarabağ ermənilərinin başçısı Bako Saakyan həmsədr ölkələrə gedir, görüşlər keçirir. Siz də gedib azərbaycanlı icmanın rəhbəri kimi onun təbliğatını alt-üst edə bilərsiniz...***

- Saakyan özü getmir e, bu görüşlərin hamısını orda təşkil edirlər. Bako Saakyan gedir orda əlini açıb dilənir. Mən heç bir vaxt o hərəkəti eləmərəm. Çünki Azərbaycanın İlham Əliyev kimi prezidenti var, xalqımıza nə lazımdırsa, artıqlaması ilə edir. Baxın, möhtərəm prezidentimiz nələr edib. Mən bircə onu bilirəm ki, biz torpaqlarımızı işğaldan azad etməliyik. Möhtərəm prezidentimizin apardığı uğurlu siyasət bizi buna doğru aparır. Baxın, son vaxtlar ermənilər hara gedirsə, ağızları ovulur, qayıdırlar. Təkləniblər. Bütün bunlar möhtərəm prezidentin yürütdüyü xarici siyasətin uğurlu nəticəsidir. Deməli, biz indikindən bir az da fəal olmalıyıq. Bizim millət vəkillərimiz, QHT-lərimiz də xaricə səfərlər edirlər, yaxşı çalışırlar. Leyla Əliyevanın "Xocalıya ədalət" kampaniyasından sonra nə qədər böyük işlər görülür. Bütün ölkələr Xocalı soyqırımının anım mərasimini keçirirlər. Argentinada, ABŞ-da Xocalı soyqırımına aid anım tədbiri təşkil olunur. Bu, elə-belə, asanlıqla başa gəlməyib e. Görün nə qədər işlər görülür, xarici siyasətdə nə qədər zəhmət çəkilir. Bunlar hamısı möhtərəm prezidentimizin apardığı siyasətin nəticəsidir. Allah kömək olsun möhtərəm prezidentimizə də, Mehriban xanıma da, qızı Leyla xanıma da, Arzu xanıma da! Gör nə qədər böyük işlər görürlər. İnşallah, bu işlərin sayəsində biz Qarabağda böyük qələbəyə nail olacağıq!

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Yarım litr qanun

Zamin HACI
zaminhaci@gmail.com

**Xarici işlər nazirinin müavini Xələf müəllimi Nazirlər Kabinetinə aparat rəhbəri qoydular. Bundan qabaq da baş nazir qoyulan Novruz müəllim uzun illər administrasiyada xarici siyasətə baxmışdı. Deməli xaricə baxanlarımızın daxilə baxmağa dəyişdirilməsi prosesi gedir. Bu da xarici siyasətin uğurları ilə bağlıdır. Axı həmişə deyirlər biz uğurlu, balanslı xarici siyasət aparırıq. Düzdür, arada Elmar müəllimi, onun idarəsini tənqid eləyənlər tapılır, ancaq bunlar barmaq sayı qədər olmaz. Əsasən etiraf edilir ki, xarici siyasətimiz olduqca uğurludur. Bunu hətta daxili siyasətdən narazı qalanlar da deyirlər.**

İqtidarın beynəlxalq aləmdə hər hansı böyük düşməni yoxdur, arada özləri tərsini söyləyib bir növ gözqaytarması eləsələr də. "Xarici düşmənlərimiz", "ikili beynəlxalq standart", "bizim uğurları istəməyən xaricdən maliyyələşən qara qüvvələr" kimi söhbətlərə çox aludə olmayın, dezinformasiyadır. Ya da yuxarıda yazdığım kimi, göz dəyməməsi üçün elə təbliğat qurulub. Azərbaycan iqtidarı İranla da dostdur, Amerika ilə də. Rusiya ilə də yaxındırlar, Ukrayna ilə də. Belarus lideri də vaxtaşırı onları tərifləyir, Fransa, Almaniya, Britaniya başçıları da. Ta nə lazımdır? Papağı yan qoy, gəz özün üçün.

İndi güman edə bilərik yaxın perspektivdə Nazirlər Kabinetində camaatla münasibətlər xaricilərlə olan kimi qurulacaq, hamı razı qalacaqdır. Rəhmətlik iqtisadi inkişaf naziri Fərhad müəllimin oxuduğu köhnə mahnıda deyilən kimi: "Hamı yerli mal alsın, Xeyir vətənə qalsın!". Ya da belə idi: "Öz musiqimiz, öz pomidorumuz". Nəsə unutmuşam, üzrlü sayın. Yaş öz sözünü deyir. Ancaq təxminən belənçik bir söhbət idi.

Bu arada deyir bir psixoloq qız milləti dəli eləyib internetin küçələrinə salıbdır. Qarabağ savaşı haqda nəsə xalqa xoş gəlməyən söhbət edibmiş. Camaat da istəyirmiş qızı tutub iyirmi faiz təhqir eləsinlər. Bizim işimiz həmişə belə olub, əsas məsələni qıraqda qoyub, mənasız söhbətlərlə başımızı qatmışıq. Hərçənd, o qızda da az yoxdur. Bütün dünyada görmüşük psixoloq millətin zırramalarını müalicə eləsin, başına ağıl qoysun, bizdə isə psixoloq xalqı dəli eləməyi ilə qürur duyur. Namiq müəllimin gözəl mahnısında deyilən kimi: "Bu nə bəladır düşmüşük Allah". Hərçənd, mən ən çox Üzeyirə qulaq asıram. Hələ sözlərə bax: "Sənə nə, Mənə nə, Ona nə, Gedirəm, gəlirəm, Sənə nə, Nənənə, Ənənə, Çənənə". Uzun mahnıdır, müəllif hüquqları pozulmasın deyə hamısını yazmıram.

Gör hardan-hara gəldik çıxdıq. Bunda deputat Kamran müəllimin də günahı var. Nədir, yoxsa mənim kimi siz də onun adını ilk dəfə eşidirsiniz? Öylədirsə, bilin, bizim belə deputatımız varmış. Deyir paytaxtın hansısa restoranında spirtli içki içib dava salıbdır. Hərçənd, deputat sonra bunun yalan xəbər olduğunu açıqlayıb. Ancaq yalan olsa da millətə gör nə qədər xeyir verdi: adamın dili açıldı, üzünü gördük, bəlkə sabah hansısa müzakirələrə qatıldığını, seçicilərlə görüşdüyünü (Allah, Allah!) də eşidərik. Bundan qabaq başqa deputat (keçmiş də olsa) və rektorumuzun sərxoş olması gündəmə gəlmişdi. Ömər Xəyyam bu durumda yazıbdır:

**"Gül rəngli şərab ver bizə, ey saqi!**
**Uymayaq söhbətə, sözə, ey saqi!**
**Bir kuzə mey gətir, torpağımızdan**
**Dövran düzəltməmiş kuzə, ey saqi!"**

Doğrudan da, şərab içən deputat ayıq deputatdan daha yaxşı qanunvericidir. Ayıq başla siyasətlə məşğul olmaq cana ziyandır. Rusiyada hər seçkidə camaatı şərabla, araqla məntəqələrə cəlb edirlər. Görürsən hər səs qutusunun böyründə xiyar turşusu ilə yüz qram araq qoyulubdur. Bu cür müsbət təcrübələri bizim seçkilərdə niyə tətbiq etməyək? Axtarsan gələn ilin büdcəsində buna vəsait tapılar.

Çalışmalıyıq deputatlar tək yox, seçiciləri ilə birgə içsinlər.




# Ermənistan böhran zolağında - Kreml sürprizə hazırlaşır

## Düşmən ölkə seçkiləri adladı, problemləri isə bir az da artdı; yeni ilin ilk aylarındaca Paşinyanı ağır sınaqlar gözləyir, çünki...

**Üstündən bir həftədən çox keçsə də, Rusiya prezidenti Vladimir Putin Paşinyanı seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik etməyib. Rusiya XİN sözçüsü Mariya Zaxarovanın sözlərindən belə anlaşıldı ki, ümumiyyətlə, Kremldən təbrik gözlənilmir. Yalnız XİN tərəfindən rəsmi İrəvana formal məzmunlu məktub ünvanlana bilər.**

Ermənistanın "müstəqillik" tarixində keçirilmiş seçkilərə Rusiya tərəfdən belə ən aşağı səviyyəli reaksiya hələ olmamışdı. O da diqqətçəkicidir ki, Rusiyanın da daxil olduğu, son vaxtlar İrəvanın kaprizləri üzündən daxili gərginlik yaşanan KTMT-nin üzv dövlətlərinin heç biri Paşinyana təbrik göndərməyib. Ancaq Putin 2017-ci ilin aprel parlament seçkilərində o vaxtkı prezident Serj Sərkisyanı partiyasının qələbəsi münasibətilə təbrik eləmişdi.

Fərq ortada. Bu, Putinin, ümumən Rusiya rəhbərliyinin Nikol Paşinyan və komandasına qəzəbli münasibətinin bariz təzahürüdür. Eyni zamanda, ikitərəfli əlaqələrdə yeni bir mərhələnin başlanmasının anonsudur. Hansı mərhələnin? Bir az sonra biləcəyik. Dəqiq olan odur ki, Ermənistanda seçki bitsə də, Paşinyan legitimlik qazanıb öz yerini bərkitsə də, ölkənin problemləri faktiki, çoxalıb.

Şübhə yox ki, Putinin dostu, ad günündə şəxsən zəng edib təbrik elədiyi eks-prezident Robert Köçəryanın seçkiyə iki gün qalmış təzədən həbs olunması Kremlin qəzəbini daha da artırıb. Bu qəzəb, yəqin ki, Paşinyana yalnızca quru təbrikin çox görülməsi ilə bitməyəcək, həmçinin Moskvanın Ermənistana münasibətlərində hansısa formada "maddiləşəcək".

*****

Məsələn, artıq soyuq qış qapını kəsdirib. Rusiya ilə Ermənistan arasında imzalanmış qaz müqaviləsinin müddəti isə iki həftə sonra - dekabrın sonunda bitir və yenilənməlidir. Rusiya işğalçı ölkəyə daxili bazar qiymətinə satdığı qazın (min kub metr üçün 150 dollar) qiymətinə təzədən baxmağa hazırlaşır. İrəvan isə qiymətin heç olmasa, indiki səviyyədə, yəni Rusiyanın cənub bölgəsinin əhalisinin aldığı qiymətdə qalmasına çalışır, hətta bundan da ucuz olmasını istəyir.

Məlumdur ki, təbii qaz isə əsas enerji daşıyıcılarından biridir və gündəlik tələbat məhsullarının qiymətinə birbaşa təsiri var. Üstəlik, Rusiya Ermənistanın qaz təchizatında monopolist dövlətdir, işğalçı ölkənin energetik infrastrukturu da Moskvanın nəzarətindədir. Siyasi, hərbi asılılıq da öz yerində. Bundan əlavə, Ermənistanın Rusiyaya xeyli kredit borcu var. Qonşu İran isə enerji bazarda ciddi paya malik deyil. İrəvan istəsə belə, qaz alıcısını Rusiyadan İrana dəyişə bilməz. Yəni tam vassal asılılığı.

Xəbər verdiyimiz kimi, dekabrın 6-da Sankt-Peterburqda Paşinyan Putinlə qazın qiyməti ilə bağlı da müzakirə aparıb. Lakin Ermənistan üçün müsbət nəticə əldə edə bilməyib. Peterburq görüşündən sonra isə parlament seçkiləri keçirilib, seçkilərdə Paşinyanın bloku qalib gəlib, Köçəryanın həbsi baş verib. Başqa sözlə, qaz məsələsi ətrafında situasiya indi 6 dekabrdan öncəkindən daha kritikdir. Moskva İrəvana indi daha qəzəblidir. Hələlik isə ermənilər təsəlli ilə yaşayırlar.

"Rusiya danışıqlar bitənədək Ermənistan üçün qazın qiymətini dəyişməyəcək. Ona kimi köhnə müqavilə qüvvədə qalacaq". "Yeni Müsavat"ın məlumatına görə, bunu Ermənistanın energetik infrastruktur və təbii ehtiyatlar naziri səlahiyyətlərini icra edən Qaregin Baqramyan İrəvanda jurnalistlərə açıqlamasında deyib.

"Yəni əgər biz ilin sonunadək anlaşa bilməsək, bu, o demək deyil ki, yanvarın 1-dən qazımızı kəsəcəklər. Nə qədər ki, anlaşmamışıq, onu köhnə qiymətə alacağıq. Danışıqlar isə davam edir. Az öncə bu mövzuda iki ölkə rəhbəri söhbət edib. Təbii ki, söhbət bizim üçün maksimum sərfəli qiymətdən gedir", - deyə o qeyd edib. Lakin nazir əvəzi söhbətin təfərrüatını açıqlamayıb.

Rusiya ilə danışıqlar isə Paşinyanın arzuladığı qiymətlə bitməyə də bilər. Rusiya, Putin nəyə görə ona güzəşt eləsin ki? Moskva artıq marağındadır ki, yavaş-yavaş Paşinyanın reytinqi "əriməyə" başlasın və daxildə ona qarşı narazılıq, müxalif mövqe güclənsin.

*****

İrəvan-Moskva münasibətlərinin perspektivini təhlil edən bir çox siyasi təhlilçilər hesab edirlər, seçkilərdən sonra rus-erməni əlaqələrini yeni sınaqlar və hətta macəralar gözləyir. Qərbin Paşinyandan gözləntilərini də ciddiyə alsaq, düşmən ölkənin seçkilərdən dərhal sonra böhran zolağına daxil olduğunu söyləmək mümkündür.

"Artıq aydındır ki, Rusiya-Ermənistan əlaqələrində dərin böhran var. 9 dekabr parlament seçkiləri bu situasiyanı ortaya çıxarmaq üçün, yalnızca səbəb rolu oynayıb. Özü də Moskvanın aşkar narazılığı belə görünür, çoxqatlıdır və özündə bir neçə komponenti ehtiva edir".

"Yeni Müsavat" xəbər verir, bu barədə 1 in.am saytında erməni şərhçi Sərkis Arsruninin yazısında deyilir. Müəllif daha sonra yazır: "Vladimir Putin məhiyyət etibarilə Ermənistanda inqilabın qəti qələbəsini ruh yüksəkliyi ilə təbrik edə bilməz. Ermənistanda artıq Rusiyanın təsir dairəsini daraldan bir parlament formalaşıb (Onun 77%-ni qərbpərəstlər təşkil edəcək - "YM"). Rusiyanın artıq Respublikaçılar Partiyasını (Serj Sərkisyanın partiyası - "YM") və Robert Köçəryanı ikinci qütbə çevirmək planı boşa çıxıb, gözlənilən islahatlar isə Ermənistandakı Rusiya oliqarxik seqmentinin təsirini sıfırlaya bilər. Nəhayət, Paşinyanın Avropa strukturları ilə bağlı siyasəti də Moskvanı narahat edir. Ona görə ki, Ermənistan Rusiyanın satellitindən müstəqil siyasət aparan subyektə çevrilə bilər ki, bu da Kremlin gündəmindən kənardır. İstənilən halda, Rusiya-Ermənistan münasibətlərindəki böhrandan qazanan üçüncü tərəf Azərbaycan olacaq".

*****

Politoloq Qabil Hüseynlinin fikrincə isə, Rusiya əvvəlkitək Ermənistanı əzizləyib sinəsinə basmağa hazır deyil (axar.az). "Digər tərəfdən Rusiya avtoritar rejimdir. Belə rejimlər özünə yaxın olan dövlətləri (rejimləri) hətta seçkilərin nəticələri bilinmədən təbrik edir. Paşinyanın Rusiya tərəfindən təbrik edilməməsi Rusiya-Ermənistan münasibətlərində mövcud problemlərin nə qədər dərin olduğunun və getdikcə də artdığının əyani sübutudur", - deyə o vurğulayıb.

Onun sözlərinə görə, bundan sonra Putin Paşinyanı təbrik etsə də, bu, gecikmiş, protokol qaydalarına, nəzakət xətrinə edilmiş olacaq: "Yəni ki, əsaslı mahiyyət daşımayacaq. Burada maraqlı məqam odur ki, Ermənistanın KTMT-də olan digər müttəfiqləri də hələ Paşinyanı təbrik etməyib. Bu da həmin dövlətlərin də Paşinyana qarşı çox tərəddüdlü mövqedə olmaları ilə bağlıdır. Çünki Paşinyan indiyə qədər öz davranışları, siyasi bəyanatları ilə dünya ictimai rəyində təzadlı və aydın mövqeyə malik olmayan bir siyasətçi kimi tanınır. Bu səbəbdən onun hakimiyyətdə tam möhkəmləndikdən sonra hansı siyasi xətt üzrə gedəcəyi barədə birmənalı fikirlər səsləndirilmir".

Politoloqa görə, Paşinyan əvvəl yol verdiyi səhvlərin nəticələrini, bəhrəsini dadmaqdadır: "Qərb də tərəddüd içindədir. Əvvəla, Qərb belə hesab edir ki, nə olur-olsun, Ermənistan Rusiyanın ağuşundan çıxmayacaq. Çıxsa da, onu böyük fəlakətlər gözləyə bilər. Necə ki, vaxtilə Ermənistan parlamentində güllələbaran hadisəsi baş verdi. Orada Rusiyanın cızdığı xətdən kənara çıxan adamların hamısı sıradan çıxarıldı. İndi də Rusiya həm zorbalıq nümayiş etdirir, həm də Paşinyana öz yerini göstərməyə çalışır. Hazırda Paşinyan "Nə tökərsən aşına, o da çıxar qaşığına" prinsipi üzrə seçkidən əvvəl yol verdiyi siyasi yanlışların nəticəsini dadmaqdadır. Yəqin ki, bütün bunlar gələcəkdə Paşinyana xalqa verdiyi vədlərin yerinə yetirilməsində çox ciddi çətinliklər yaradacaq".

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

**Ötən həftə ABŞ Senatı Earle D.Litsenbergerin Azərbaycana səfir postuna namizədliyini təsdiqlədi. Onu bu vəzifəyə prezident Donald Trump irəli sürmüşdü.**



# ABŞ-ın yeni səfiri Azərbaycana xüsusi missiya ilə gəlir

## **Qabil Hüseynli:** "ABŞ doktrinasında Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan xüsusi yer almağa başlayıb..."

İndiyədək Litzenberger Birləşmiş Ştatların Serbiyada, Qırğızıstandakı səfirliklərində, eləcə də ABŞ-ın NATO missiyasında çalışıb. O, hazırda Dövlət Departamentində hərbi-siyasi məsələlər üzrə büroda aparıcı məsləhətçidir. Yeni səfirin fransız, rus, serb-xorvat və bolqar dillərini bildiyi xəbər verilir.

İndiyə kimi ABŞ hökumətinin Azərbaycana aşağıdakı səfir təyinatları olub. İlk təyin olunmuş səfir Robert Finn 1992-ci ildə bir neçə ay ərzində bu postu tutub. 1992-ci ilin mart ayında ABŞ-ın Bakıda diplomatik missiyasını o açıb və üç il səfirliyə başçılıq edib. Daha sonra Riçard Mayls 1992-ci ildən 1993-cü ilə kimi Amerikanın Azərbaycandakı səfiri olub. Digər səfirlər: Riçard Kozlariç (1994-1997), Stenli Eskudero (1997-2000), Ross Uilson (2000-2003), Rino Haniş (2003-2006), Enn Dersi (2006-2009), Metyu Brayza (2011-2012), Riçard Morniqstar (2012 -2014), Robert Sekuta (2015-2018).



Qabil Hüseynli

Maraqlı olan prezident Trampın Azərbaycana səfir göndərdiyi şəxslə bağlı məqamlardır. Litsenbergerin rəhbərlik etdiyi Hərbi-Siyasi Məsələlər üzrə Büro ABŞ Dövlət Departamentinin ürəyi sayılır. O ən çətin bölgələrdə - Əfqanıstan, Serbiya, Qırğızıstan, Qazaxıstan, Bolqarıstan və Əlcəzairdə diplomatik xidmətdə olub. Kifayət qədər təcrübəli diplomat olan Litsenberger hərbi-təhlükəsizlik sahəsinin təcrübəli mütəxəssisidir. Bir müddət o, ABŞ dövlət katibinin I müavini səlahiyyətini də icra edib. ABŞ mediası bir müddət əvvəl onun prezidentin hərbi-siyasi məsələlər üzrə müşaviri və ya NATO-da ABŞ nümayəndəliyinin rəhbəri təyin ediləcəyi barədə məlumatlar yaymışdı. Görünür, Birləşmiş Ştatlar mediası Litsenbergeri layiq hesab etdiyi üçün onun belə mühüm vəzifəyə namizədliyini versiya kimi irəli sürmüşdü.

Ekspertlər hesab edir ki, hərbi-təhlükəsizlik üzrə peşəkar diplomatın Azərbaycana səfir göndərilməsi Azərbaycanla ABŞ arasında hərbi-təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirəcək.

Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a şərhində bildirdi ki, Riçard Kozlariçdən sonra bu, Azərbaycana göndərilən ən güclü, Amerikanın strateji maraqları üçün ən əhəmiyyətli olan səfirdir: "Belə bir şəxsin səfir təyinatı o deməkdir ki, ABŞ-ın Cənubi Qafqaza diqqəti qarşıdakı dönəmdə daha da artacaq: "ABŞ Cənubi Qafqaz ölkələri ilə əlaqələrini ciddi surətdə möhkəmləndirmək niyyətindədir. Son vaxtlar ABŞ-ın postsovet məkanında olan ölkələrə diqqəti xeyli artırıb. Burada məqsəd ondan ibarətdir ki, postsovet məkanında Rusiyanın təsirini mümkün qədər azaltmağa nail olunsun. Rusiyaya qonşu olan ölkələrdə Vaşinqton bundan sonra daha ciddi şəkildə möhkəmlənmək xəttini yürüdəcək. Hərbi-təhlükəsizlik sahəsinin təcrübəli mütəxəssisi olan diplomatın Bakıya səfir göndərilməsi də bunun əlamətlərindən biridir. Bu, o deməkdir ki, Azərbaycanda bundan sonra ABŞ-ın hərbi-təhlükəsizlik məsələləri sahəsində əməkdaşlıq etmək niyyəti var. NATO-nun da Azərbaycanın daxil olduğu bölgəyə marağı artmaqdadır. Ən başlıcası odur ki, Amerika bu ölkələrə tətbiq etdiyi bir sıra embarqoları, silah embarqosunu, maliyyə yardımı embarqosunu - Azərbaycana bunların ikisi də şamil edilmişdi - aradan qaldırmaq istəyir. Məsələn, ABŞ prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun ötən ay Azərbaycana səfəri zamanı həm "Azadlıq aktına dair 907-ci düzəliş"in aradan qaldırılacağı barədə fikir söyləməsi və hətta deməsi ki, bu düzəlişin mövcud olduğu şəraitdə belə ABŞ prezidenti öz səlahiyyətlərindən istifadə edib Azərbaycana maliyyə yardımı da qərarını qəbul edə bilər, bu çox ciddi prosesin getməsindən xəbər verir. Con Bolton Azərbaycanla silah alveri məsələsində əməkdaşlığın da mümkün olduğunu dilə gətirmişdi. Silah embarqosunu ABŞ-ın götürə biləcəyi də bəyan edilmişdi. Bütün bunlar o deməkdir ki, ABŞ doktrinasında Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan xüsusi yer almağa başlayıb. Hərbi-təhlükəsizlik sahəsinin adamı olan diplomatın səfir təyinatı qeyd olunan sahələrdə iki ölkə arasında yeni əməkdaşlıq kanallarının açılmasına təkan verə bilər".

Politoloq hesab edir ki, yeni səfirin burada fəaliyyətə başlamasından bir müddət sonra biz hətta ABŞ-dan NATO silahları da ala bilərik: "Bu, isə Azərbaycan-Amerika münasibətlərində tamamilə yeni bir dövrün açıla biləcəyi qənaətini xeyli möhkəmləndirir. ABŞ hərbi-təhlükəsizlik məsələləri üzrə mütəxəssisi Azərbaycana səfir göndərməklə həm də Rusiyaya işarə vermək istəyir ki, postsovet məkanında hərbi-təhlükəsizlik məsələləri Vaşinqtonun diqqətində və marağında olacaq. Yeni səfirin bütün səyləri ABŞ-Azərbaycan münasibətlərinin heç zaman olmadığı səviyyədə gücləndirilməsinə, Amerikanın bölgədə möhkəmlənməsinə yönələcək. Ola bilsin ki, bu səylər cənub və şimal qonşumuz tərəfindən o qədər də birmənalı qarşılanmasın. Amma qonşularımız da nəzərə almalıdırlar ki, Azərbaycan müstəqil dövlətdir və öz təhlükəsizliyini möhkəmləndirmək üçün beynəlxalq normaların yol verdiyi bütün imkanlardan istifadə etmək haqqına malikdir".

Politoloq əlavə etdi ki, yeni səfiri Earle D.Litsenbergerin təyinatını artıq Senat təsdiqlədiyi üçün yaxın zamanlarda onun Bakıya gəlişi reallaşacaq: "Dövlət Departamenti yeni səfirə təxminən iki həftə vaxt verə bilər ki, müəyyən hazırlıq işlərini başa çatdırsın. Səfirin bura gələn ərəfədə Pentaqonda görüşünün olması da mümkündür. Eyni zamanda Mərkəzi Kəşfiyyat İdarəsi ilə təmasları hər halda olacaq. Çünki səfirlər təyin edildikləri ölkəyə getməzdən əvvəl öz ölkəsinin xüsusi xidmət orqanları və xarici siyasət idarəsi tərəfindən ciddi surətdə məlumatlandırılır və təlimatlandırılır. Onun qarşısında konkret məsələlər qoyulur. Hesab edirəm ki, ABŞ-ın yeni səfiri çox yaxın zamanda Azərbaycana gələcək".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Üzr istəyin, xanım "psixoloq"!



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Qarabağ savaşı başlanandan bəri 3888 nəfər azərbaycanlı İtkin düşüb. 550 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblrdən vəfat etdiyi dəqiqləşib. Onlardan 104-ü qadındır... Özünü psixoloq sayan Nərmin Şahmarzadə həmin "104-lər"dən biri olsaydı, yaxud doğmalarından kimsə bu taleyi yaşasaydı, yəqin "erməni mənim düşmənim deyil" deməzdi.**

Neçə gündür ki, 19 yaşlı bu tələbə xanımın dedikləri sosial şəbəkədə və mediada müzakirə olunur. Bəlkə də istəyinə çatıb, mənim kimi onun adını ilk dəfə eşidən nə qədər insana özünü tanıtdıra bilib. Amma çox təəssüf ki, nə qədər böyük qəbahətə yol verdiyini, nə qədər yanlış yolla məşhurlaşmağa cəhd etdiyini başa düşməyib.

Təbii ki, təhqir yolverilməzdir, xüsusilə də xanımı. Amma bu xanım də nəzərə almalıydı ki, insanlarımızın ürəyindən qan daman bir vaxtda reaksiyalar ölçülü-biçili olmayacaqdı. Bu, intellekt yarışı deyil ki.

Görəsən, gənc xanım nəyin, hansı öhdəliyin müqabilində bu qədər ağır təhqirlərə hədəf olmağı özünə rəva bilib? Şəxsən mən birmənalı şəkildə hesab edirəm ki, bu, təsadüfün nəticəsi deyil. Biri erməni ilə qol-boyun şəkil çəkdirir, o biri qız-gəlinlərimizin qisasını alan Mübarizi "qatil" adlandırır.

Nərmin deyir müharibə şəraitində olsaydıq, Mübariz İbrahimovun addımını qəhrəmanlıq sayardı. Doğrudanmı o, Azərbaycanın müharibə şəraitində olmasından xəbərsizdir? Bəs, hər gün Tovuzdan-Horadizədək dinc əhalinin, əsgərlərin atəşə tutulmasının adı nədir? Bu xanım müharibə şəraitini necə təsəvvür edir? O, doğrudanmı 9 yaşlı Farizin, 2 yaşlı Zəhranın elə onun dediyi kimi "müharibə şəraiti olmayan" dövrdə erməni gülləsinə tuş gəldiyini unudub?

Təhlükəlisi odur ki, o, evdar xanım deyil. Bu fikirləri o, hansısa auditoriyalarda deyir, yaxud deməkdə davam edəcək. Ona uşaqlar, yeniyetmələr, gənclər qulaq asır və asmaqda davam edəcək. Sabah o uşaqlar vətənə xidmətə yollanacaqlar və aralarından kimlərsə çıxıb deyə bilər ki, insan öldürmək olmaz - düşmən olsa belə. Bu, ciddi təhlükədir.

Onun nəzərincə, "Xocalıdakı əsgər, Xocalıda olan müharibə bambaşqa bir şey" olub. Nərmin deyir Qarabağdakı əsgərin də "anası, bacısı var. Bütün qarşı tərəf düşmən deyil. Sənin düşmən dediyin adamın duyğuları var". Bu iddiaları səsləndirən "psixoloq"un özünün psixoloqa ehtiyacı var.

Azərbaycan torpağında "yatan" ermənin "duyğularının" qayğısına qalan Nərmin xanım görəsən Mübariz İbrahimovun son məktubunu oxuyubmu?

Azərbaycanın çağdaş nəslinə örnək olan bir adı indi aşağılamağa çalışmaq böyük cinayətdir. Mübariz 22 yaşında bəy kostyumunu geyinmədən ölümü seçdi - Vətən yolunda! Ona dil uzatmağa kimsənin haqqı çatmır! Həmçinin bütün şəhidlərə!

Kimlərsə özünü ağıllı göstərib söz, fikir azadlığdan bəhs edir. Azərbaycanın şəhid övladını aşağılayan şəxsə bəraət qazandıranlar məntiqlə "Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə haqqının olması" iddialarına da haqq qazandırmış olur. Hansısa fikir ərazi bütövlüyümüzün qəsdinə, təhlükəsizliyimizə, gənc nəslin vətənpərvərlik tərbiyəsinə mənfi təsir göstərirsə, ona meydan vermək olmaz!

Bir insan Azərbaycan uğrunda həyatını qurban veribsə, kimsənin ixtiyarı yoxdur onun keçdiyi yolu təftiş etsin! Bu kimi cəhdlərin qarşısı alınmalıdır! Həmçinin hüquq öz sözünü deməlidir. Mübariz İbrahimov Azərbaycan gəncinin adını yüksəklərə qaldırıb, dünyaya səs salan qəhrəmanlıq nümunəsi göstərib. Qardaş Türkiyədə bu qəhrəmanımızın adı filmlərdə əbədiləşdirir, hətta İranda Mübarizin yolu örnək göstərilir, Azərbaycanda isə məşhurlaşmaq istəyən bir xanım onu aşağılayır. Hansı ki, bu yüksək adı ona dövlət verib. Xalqın, dövlətin dəyər verdiyi şəhidə çamur atanlar isə öz cəzasını almalıdır ki, başqalarına da ibrət olsun!

Ermənistan bu qədər cinayətlər törədib, görün bir erməni çıxıb deyirmi ki, bizim əsgər başqasəndir, işğalçıdır? Əksinə. Ötən həftə Londonda "Arsenal"-"Qarabağ" oyununda meydançaya Qarabağ ermənilərinin "bayrağı" ilə çıxan erməninin köynəyində Kaliforniya ermənisi, terrorçu Monte Melkumyanın şəkli var idi. Ermənistanın milli qəhrəmanı olan Monteni qəhrəman oğullarımız Ağdamda qəbərtmişdi. Təsəvvür edirsiniz, dünyanın o başından gəlib bizə qarşı döyüşən qatili, işğalçını, başkəsəni qəhrəmana çevirirlər.

"Bizim" Nərminsə öz torpağı uğrunda şəhid olana həqarət edir. Üzr istəməlidir, əfv diləməlidir, özü də Mübarizin məzarı başında! Onda bəlkə qəhrəman qardaşımızın ruhu onu bağışladı...

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

# Hava ilə bərabər insanları da zəhərləyən restoranlar

## Eyyub Hüseynovdan SOS: “Restoranlarda insanlara ən təhlükəli qidalar təklif olunur...”

**Son zamanlar paytaxt ərazisində restoranların fəaliyyətinə ciddi nəzarət var. Xüsusilə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi restoranların havanı çirkləndirməyinə qarşı sərt mübarizə apararaq, lazımi nəticələrə gəlməkdədir.**



Ölkə başçısının sərəncamı ilə Ekologiya və Sərvətlər Nazirliyi məhkəməyə müraciət etmədən, havanı çirkləndirən, müvafiq təmizləyici qurğu quraşdırmayan restoran sahiblərini cərimələyə bilər. Bu xüsusda müəyyən addımlar da atılıb. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Bakı, Sumqayıt, Gəncə və Abşeron yarmadasında müasir standartlara uyğun təmizləyici qurğuları olmayan, havanı çirkləndirən 292 iaşə obyektlərindən atmosferə atılan tullantılarla bağlı monitorinqlər aparılıb. Bu barədə məlumatı nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova bildirib.

Onun sözlərinə görə, ETSN tərəfindən verilən vaxtdan bu günə qədər 223 iaşə obyektində müasir standartlara cavab verən qurğu quraşdırılıb. İki restoran məhkəmənin qərarı ilə bağlanıb. Onlar “Özkardeşlər” və “Qızıl balıq” adlı iaşə obyektləridir". İ.İbrahimova qeyd edib ki, məhkəmə tərəfindən 17 restoranın bağlanması istiqamətində işlər görülür.

Bəzi restoranların təkcə havanı deyil, insanları da zəhərləməsi ilə bağlı indiyə qədər yetərincə məlumat yayılıb. Söhbət mənşəyi məlum olmayan ətlərdən gedir ki, əksər hallarda bu ətlərin son duracağı restoran mətbəxləri olur.

Əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması, insanların sağlamlığına ciddi zərər vuran, istifadəyə yararsız yeyinti məhsullarının satışının qarşısının alınması istiqamətində polis orqanlarının aidiyyəti qurumlarla birgə tədbirləri davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən mələsə ilə bağlı bildirilib ki, növbəti belə tədbir dekabrın 13-də Baş İctimai Təhlükəsizlik İdarəsinə bilavasitə tabe olan Karantin tədbirlərini təmin edən Əlahiddə Polis Taboru əməkdaşlarının Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri ilə birgə Ağcabədi rayonu ərazisində keçirilib.



Rayonun Avşar kənd sakini Məzahir Rüstəmova məxsus həyətyanı sahəyə baxış zamanı oradan mənşəyi məlum olmayan və natəmiz vəziyyətdə saxlanılan 170 kiloqram ət aşkarlanıb. Ətdən götürülmüş nümunələr ekspertiza keçirilməsi üçün Qida Təhlükəsizliyi Agentliyinin laboratoriyasına təhvil verilib.

“Yeni Müsavat”a danışan ekspert Eyyub Hüseynov bildirdi ki, əslində restoranlarla bağlı ciddi tədbirlər görmək lazımdır. Ekspertin fikrincə, bu işlərin hamısı Daxili İşlər Nazirliyinə həvalə edilməlidir: “Əhali məndən hər dəfə soruşur ki, nə üçün aşkar edilən leş ətlərin sifarişçisi tapılmır. Yeni məlumdur ki, bir şeyin tələbi olmasa, təklifi də meydana çıxmaz. Kimdir bunu tələb edənlər? Mənə elə gəlir ki, bu məsələlərdə Daxili İşlər Nazirliyinə manеə olanlar var. Deyim ki, bu sahədə ən uğurlu iş Daxili İşlər Nazirliyi tərəfindən aparılır. Digər dövlət orqanları deyirlər ki, hər əti satmaq olar. Yəni sən at, eşşək, it əti də sata bilərsən. Yalnız bu şərtlə ki, həmin məhsulun üzərinə yazasan ki, nə ətidir. Bu mövqe ilə qəti şəkildə razı deyiləm. Yalnız Daxili İşlər Nazirliyi belə şeyləri ifşa edən zaman, onu ekspertizaya göndərir, hüquqi addımlar atır. Yəni bu qurumun mövqeyi digərləri kimi deyil. Ona görə də nazirliyə məsələ ilə bağlı məncə təzyiq edənlər var. Hər zaman təklif etmişəm ki, məsələ birbaşa olaraq Daxili İşlər Nazirliyinə həvalə edilsin. Bəli, restoranlarda problemlər yaşanır. Bu, heç kimə sirr deyil”.

Ekspert bildirib ki, istehlakçı olaraq özüm-özümüzü aldadırıq: “Bütün dünya istehlakçıları özlərini aldadır. Bunu Beynəlxalq İstehlakçılar Təşkilatının Azərbaycan nümayəndəsi olaraq deyirəm. Kim bizim ömrümüzün uzunluğu barəsində düşünür? Hansı ölkə istəyər ki, onun vətəndaşlarının 50 faizinin ömrü uzun olsun və onlara pensiya ödənilsin. Bunu, heç bir ölkədə istəmir. İstehlakçıları aldatmaq üçün dünyada işlər gedir. Guya həkimlər, dövlətlər dünyada insanların ömrünü uzatmaq üçün işlər aparırlar. Əslində isə bu, belə deyil. Problem Azərbaycandan da yan keçməyib. Məsələ kapitalizmin nəticəsidir. Bəli, restoranlarda insanlara ən təhlükəli məhsullar təklif olunur. Şadlıq evlərində iş başlayan zaman isə dövlət məmuru evinə yatmağa gedir. Ona görə də nəzarət zəifdir. Ölkə başçısı da dəfələrlə bildirib ki, həyatın bütün sahələrində ictimai nəzarət lazımdır - o cümlədən bu sahədə. Nə qədər ki, ictimaiyyətlə iş aparılmır, bu problem var, olaraq qalacaq. Restoranlarda tüstü ilə yanaşı, bu məsələ də qabardılmalıdır. Çünki əsas məsələ elə budur”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# Qış qripi qapıda: peyvənd edək, etməyək - həkim tövsiyəsi



## Hüseyn Mehdiyev: “Böyüklərin peyvənd olunması uşaqlarla müqayisədə o qədər də təhlükəli deyil...”

**Qış aylarında ölkədə ən çox yayılan xəstəliklər sırasında qrip və soyuqdəymə ön sırada gəlir. Bir çox əcnəbi həkimlər hesab edirlər ki, insanlar bu xəstəlikdən qorunmaq üçün hər il peyvənd olunmalıdırlar. İsrailin məşhur terapevti Şimon Perets publika.az saytına müsahibəsində bildirib ki, qripə qarşı mütləq vaksin vurulmalıdır.**



“İsraildə qrip virusu adətən iki mövsümdə yayılır. Ona görə də oktyabr və mart aylarında peyvənd vurulur. Çünki peyvənd qripə yoluxma təhlükəsini azaldır. Yoluxanda isə xəstəliyi daha rahat keçirtməyə yardım edir. Ona görə bütün xəstələrimə qripə qarşı peyvənd vurdurmağı tövsiyə edirəm. Həmçinin özümə və doğmalarıma da peyvənd vurdururam”, - deyə o qeyd edib.

Həkim həmçinin deyib ki, virus xəstəliklərində deyil, amma qrip zamanı pnevmoniyaya (ağciyərin sətəlcəmi -red.) yoluxma riski var: “Xüsusən də uşaqlar, yaşlılar və xroniki xəstəliyi olan insanlar bu müddətdə ehtiyatlı olmalıdırlar. Qrip əleyhinə vurulan peyvəndlər pnevmoniya riskini 70-75 faizədək azaldır”.

Azərbaycanda isə peyvəndə qarşı münasibət birmənalı deyil. Əksər valideynlər özləri bir yana, uşaqlarına da müvafiq peyvəndləri vurdurmaqdan çəkinirlər. İnsanlar ilk növbədə peyvəndin Azərbaycana hansı ölkədən gətirildiyini müzakirə edirlər. Hesab edirlər ki, dövlət poliklinikalarında vurulan peyvəndlər keyfiyyətsiz, özəl xəstəxanalarda vurulan vaksinlər isə keyfiyyətlidir.

Bəs əslində reallıq nədən ibarətdir? Böyüklər də peyvənd olunmalıdırmı?

“Yeni Müsavat”a danışan həkim-pediatr Hüseyn Mehdiyev bildirdi ki, Azərbaycana Belçikadan, Fransadan və eyni zamanda Hindistandan da peyvənd gətirilir: “İlk olaraq uşaqlara vurulan peyvəndlərdən danışaq. Deyim ki, əslində bütün ölkələrdən gətirilən vaksinlər eynidir. Əhali arasında belə bir fikir yaranıb ki, dövlət poliklinikalarında vurulan peyvəndlər pisdir. Ona görə də özəl xəstəxanalara gedib, uşaqlara bahalı peyvənd vururlar. Mənim özüm isə çox zaman nəvələrimə poliklinikada olan peyvəndlərdən vurdururam. Düşünürəm ki, hər halda bütün uşaqları ölümə verməyəcəklər ki? Çünki bu peyvənd bir uşağa vurulmur. Bəzən baxırsan ki, uşağın güclü allergiyası var, yaxud ürəyi zəifdir. Ona peyvənd vurmaq olmaz. Eləcə də nevroloji xəstə olan uşaqlara peyvənd vurulmalı deyil. Bu baxımdan həkim müayinəsindən keçib, sonra peyvəndə getmək lazımdır. Peyvəndin vurulması ilə bağlı fikirlər birmənalı deyil. Vaxtilə çiçək xəstəliyi vardı ki, bu xəstəlik peyvəndlərin hesabına ləğv edildi. Vaxtında peyvəndlər olmasaydı, yəqin ki, əhalinin 60-70 faizi şikəst olardı. Eləcə də poliomielit xəstəliyi ilə bağlı uşaq, vaxtı-vaxtında peyvənd olunmasa, virus bədənə girən kimi iflic olar. Eləcə də digər uşaq infeksiyalarına qarşı da peyvənd olunmalıdır. Son dövrlərdə autizmin geniş yayılmasında peyvəndlərin rolundan danışırlar. Bu haqda da nəzəriyyələr var. Ancaq ortada yekdil fikir yoxdur. Hazırda Azərbaycanda Səhiyyə Nazirliyi peyvəndin vurulmasının lehinədir. Sözsüz ki, mənim təcrübəmdə də dəfələrlə olub ki, peyvənddən sonra uşaqda qıc olma başlayıb, temperatur yüksəlib. Hətta elə hal olub ki, uşağa peyvənd vurublar, bir neçə dəqiqə sonra uşaq ölüb. Yuxarıda da qeyd etdiyim kimi uşağa peyvənd vurmadan öncə həkim yoxlaması vacibdir. Bütün bunlara baxmayaraq, peyvəndin əleyhinə də olmaq mümkün deyil. Məsələ ilə bağlı birmənalı fikir yoxdur”.

Həkim bildirib ki, böyüklərin peyvənd olunması uşaqlarla müqayisədə o qədər də təhlükəli deyil: “Böyüklər də peyvənd olunmalı, xəstəliklərdən qorunmalıdırlar. Ümumiyyətlə, virusun özü, paratipləri, tipləri var. Ona görə də bir iynə ilə orqanizmi virusdan qorumaq kimi təcrübə yoxdur. Bu, mümkün olan şey deyil. Eləcə də bir iynə ilə qripdən qorunmaq da mümkün deyil. Çünki bu xəstəliyin xeyli sayda növləri, paratipləri var. Onların hamısının qarşısını bir peyvəndlə almaq çətindir. Ancaq hər bir virusdan sonra ən azı 6 ay ərzində bədənin immuniteti qalır. Bu səbəbdən də istər uşaqlarda, istərsə də böyüklərdə ilk növbədə bədənin immunitetinin qaldırılmasına diqqət edilməlidir. Qrip olan insan başını bürüyüb, evdə yatmalı deyil. Təmiz havada nə qədər çox olsa, otağın havası nə qədər çox dəyişdirilsə, o qədər yaxşı olar. Eyni zamanda otaq yaş əski ilə də silinməlidir. Xüsusilə də qış aylarında meyvələri, meyvə şirələrini, göyərtiləri çox qəbul etmək lazımdır. Ən azından mövsümi meyvələri qəbul etmək gərəkdir ki, müqavimət qalxsın. Bundan əlavə, soyuq-isti duş da qəbul etmək olar. Çox geyinib, bürünməklə əslində daha çox xəstəliyə qapı açmış oluruq. Eyni zamanda insanlar kollektiv içərisində qoruyucu maskalardan istifadə etməlidirlər. Bunlar edilərsə, qripə də yoluxma riski azalar. Təkrar peyvənd məsələsinə qayıdaraq onu da qeyd edim ki, bu vaksinlər barəsində kimsə konkret fikir söyləyə bilməz. Ancaq bu da realdır ki, peyvəndin yaxşısı, pisindən daha çoxdur”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**



# 2019-a keçən kövrək Qarabağ ümidləri - əsas gözlənti

## Ekspertlərdən ehtiyatlı nikbinlik; **rusiyalı politoloq:** "Gələn il Qarabağ məsələsində formal mövqelərdə qalmaq çətin olacaq..."

**Keçən həftə Qarabağ mövzusunda kifayət qədər maraqlı açıqlamalarla, bəyanatlarla yadda qaldı. O sırada Avropa Parlamenti bir daha Qarabağ konfliktinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini ehtiva edən mühüm sənəd qəbul elədi. Erməni lobbisinin cəhdlərinə rəğmən, yekun sənədə problemin həlli ilə bağlı öz müqəddəratını təyinetmə prinsipini əlavə eləmək təklifi böyük səs çoxluğu ilə rədd olundu.**




Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə Bakıda prezident İlham Əliyevlə görüşdə Dağlıq Qarabağ məsələsində Moskvanın əlindən gələni edəcəyini bildirməklə yanaşı, Rusiyanın tezliklə Azərbaycan və Ermənistan başçılarının görüşünü təşkil etməyə çalışacağını söylədi. Bundan əlavə, Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin toplantısında Qarabağ məsələsi də diqqətdə oldu.

Daha bir maraqlı olay Belarus prezidenti Aleksandr Lukaşenkonun vaxtilə Ermənistan rezidenti Serj Sərkisyana etdiyi əlverişli Qarabağ təklifi barədə açıqlaması oldu. Söhbət Dağlıq Qarabağ ətrafında 5 rayonun qeyd-şərtsiz azad edilməsi qarşılığında bölgədə kommunikasiyaların açılmasından gedir - hansı təklifi ki, Sərkisyan qəbul etməyib.

Ötən həftənin Dağlıq Qarabağla bağlı yadda qalan məqamlarından biri də odur ki, Azərbaycan prezidenti İlham Əliyev və erməni hökumətinin başçısı Nikol Paşinyan tvitter sosial şəbəkəsində Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının perspektivləri haqda iki maraqlı mesaj yazıblar. Özü də Azərbaycan və erməni liderləri yazıları təxminən eyni vaxtda qoyublar.

Azərbaycan prezidenti İlham Əliyev hesab edir ki, 2019-cu il Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına yeni impuls verəcək.

"2019-cu il Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesinə yeni impuls verəcək", - deyə keçən cümə ölkə başçısı twitter-dəki mikrobloqunda qeyd edib.

"Qarabağ münaqişəsinin sülh nizamlanması Ermənistanın əsas prioriteti olaraq qalır". Bunu isə twitter-dəki mikrobloqunda baş nazir səlahiyyətlərinin müvəqqəti icraçısı Nikol Paşinyan yazıb. "Biz regionda sabitlik və sülh naminə nizamlanmanın sülh prosesini davam etdirəcəyik. Nizamasalma bütün tərəflərdən səylər tələb edir", - deyə Paşinyan vurğulayıb.

Əlavə edək ki, keçən həftə İlham Əliyev Rusiyanın xarici İşlər naziri Sergey Lavrovla görüşü zamanı Azərbaycanın 2019-cu ilin Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesinə yeni impuls verəcəyinə ümid etdiyini bildirib.

*****

2018-ci ilin sonuna isə iki həftədən də az qalır. Bəs gələn il gerçəkdən əvvəlki illərdən yaxşı mənada fərqlənə biləcəkmi? Bundan ötrü zəmin nə dərəcədə ciddi və əsaslı görünür?

Politoloq Qabil Hüseynliyə görə, hazırda danışıqlar prosesi üçün beynəlxalq mühitdə əlverişli şərait yaranıb (axar.az). "Bu şərait Azərbaycanın ərazi bütövlüyü məsələsinə əksər beynəlxalq təşkilatların və dövlətlərin dəstək verməsidir. Bu nöqteyi-nəzərdən ölkə başçısı da Azərbaycan dövlətinin beynəlxalq mövqelərinin möhkəmlənməsini nəzərdə tutur. Üstəlik də problemin beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsi artıq daha çox ölkələr və beynəlxalq təşkilatlar tərəfindən tələb edilir. Bütün bunları nəzərə alaraq, İlham Əliyev də 2019-cu ilin Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əlverişli olacağını söyləyir".

Onun sözlərinə görə, artıq açıq, ictimaiyyətə bəlli olan danışıqlar prosesi dalana dirəndiyindən danışıqların çoxu kulislər arxasında həyata keçirilir. "Kulislər arxasında da böyük güclərin nümayəndələri bu danışıqlarda iştirak edir. Rusiya bu məsələdə daha fəaldır. Təklif etdiyi ideyalar maraqlı və Azərbaycan üçün tam sərfəli olmasa da, hər halda, Rusiya təşəbbüsü öz əlinə alıb. Bununla ABŞ və Avropa Birliyinin Cənubi Qafqaza nüfuzunun qarşısını almağa çalışır. Amma bu güclər də bölgəyə nüfuz etməkdə qərarlıdır. Bu nöqteyi-nəzərdən söyləmək olar ki, kəskin siyasi rəqabət şəraitində problemin həllinə yanaşmalar və cəhdlər 2019-cu ildə artacaq".

*****

"Lavrovun Bakı səfəri təkcə nazirlik xətti üzrə 2018-ci ilin işlərinə yekun vurulması ilə deyil, həm də gələn il üçün planlarla bağlı idi. Ona görə ki, başa çatmaqda olan ildə həll olunmayan mürəkkəb məsələləri gələn il həll etmək lazım gələcək". Bunu isə rusiyalı tanınmış politoloq Qriqori Trofimçuk deyib. Onun sözlərinə görə, bu, ilk növbədə Qarabağ münaqişəsinin nizamlanması probleminə aiddir və Rusiya XİN rəhbərinin Bakı səfəri zamanı bu məsələyə xüsusi diqqət yetirilib.

"Məhz bu səbəbdən, Azərbaycan prezidenti İlham Əliyev, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Rusiyanın səylərini xüsusi vurğulayaraq, ümidvar olduğunu bildirib ki, 2019-cu il nizamlama prosesinə yeni impuls verəcək. Mühüm məqamlardan biri ondan ibarətdir ki, Rusiya XİN başçısı Bakıya Ermənistanda növbədənkənar parlament seçkiləri keçiriləndən sonra gəldi. Bu seçkilər təkcə Qarabağa dair danışıqlar prosesi çərçivəsində deyil, həm də Ermənistanın özündə və bütün Cənubi Qafqazda hadisələrin gələcək inkişafına ciddi təsir göstərəcək. Üstəlik, "yeni İrəvan"la Qarabağın rəhbərliyi arasında münasibətlər kəskinləşib", - deyə politoloq qeyd edib.

Q. Trofimçuk vurğulayıb ki, həm Moskva, həm də Bakı daha dəqiq qərarlar qəbul etmək üçün bu faktı nəzərə almalıdır. O deyib: "Xüsusən ona görə ki, Vaşinqton bütövlükdə bu regiona və xüsusən Azərbaycana diqqətini artırıb, o cümlədən Bakıda ABŞ-ın yeni səfirini təyin edib. Başqa sözlə, o cümlədən beynəlxalq vəziyyətin xeyli mürəkkəbləşməsi ilə əlaqədar gələn il Qarabağ məsələsində formal mövqelərdə qalmaq, konkret tədbirlərdən yaxa qaçırmaq çətin olacaq. Bununla bərabər, prezident İlham Əliyev görüşdə qeyd edib ki, başa çatmaqda olan 2018-ci il Azərbaycan-Rusiya münasibətlərinin inkişafı baxımından bütövlükdə səmərəli olub. Bu, həqiqətən belədir. Regionda baş verən mürəkkəb hadisələr fonunda Azərbaycan mahiyyət etibarilə Cənubi Qafqazda Rusiyanın ən etibarlı tərəfdaşına çevrilib. Azərbaycan prezidenti tərəfindən verilən bu yüksək qiymət gələn il üçün bir növ avansdır. Beləliklə, qazanılmış nəticələrin 2019-cu ildə praktikada daha da möhkəmlənməsinə heç bir maneə yoxdur".

Qalır bu yöndə real nəticələri, öncəliklə də Qarabağ məsələsinin sülh yolu ilə həlli yönündə Rusiyanın, nəhayət, hərəkətə keçməsini gözləmək...



# Qarabağda iki erməni əsgəri minaya düşdü

**İşğalçı erməni ordusunun ağır yaralanmış iki hərbi qulluqçusu dünən Xankəndidən Yerevandakı Mərkəzi klinik hərbi hospitala çatdırılıb. İnformasiyanı "Sputnik Armeniya"ya hospitaldan təsdiq ediblər (virtualaz.org).**

"Hər iki yaralının vəziyyət stabil-ağırdır. Hərbi qulluqçulardan biri kombinasiya edilmiş mina-partlayıcı yaralanmalarla daxil olub, o, baldır sahəsindən amputasiya edilib. İkinci yaralı qarın nahiyəsində güllə yaraları ilə gətirilib", - deyə mənbə bildirib.

Ordudakı mənbə nəşrə bildirib ki, hadisə minanın partlatması nəticəsində baş verib. Nəşrin məlumatına görə, hadisə bir neçə gün əvvəl olub. Hadisənin başqa detalları, eləcə də zərərçəkmişlər haqda məlumatlar açıqlanmır.

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

# Türkiyə ABŞ və Avropa ilə üz-üzə gələ bilərmi?

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkiyə ordusunun bir neçə gündən sonra Suriyanın kürdlərin nəzarətində olan Menbiç rayonunda əməliyyatlara başlayacağını bəyan etməsi Avropa İttifaqı və Amerikada ciddi narahatlıqla qarşılanıb. Artıq rəsmi bəyanatlar verilməyə başlayıb.**

## Menbiç əməliyyatı tərəfləri qarşı-qarşıya qoyub, ancaq...; politoloq: "Böyüklər kiçiklərə görə üz-göz olmurlar..."



Avropa Birliyi Türkiyəni Suriyanın kürdlərin nəzarətində olan Menbiç bölgəsində əməliyyatlara başlamamağa çağırır. Axar.az xəbər verir ki, bu sözləri Avropa Birliyinin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini deyib. O bildirib ki, Türkiyə Avropa Birliyinin əhəmiyyətli ortağıdır: "Türkiyə bölgədə çox önəmli rol oynayır. Biz Suriyada şiddətə son qoyulmasını, terrorizmin məğlub olmasını, bu ölkədə və bütün bölgədə sabitliyin əldə edilməsini istəyirik. Bu səbəbdən türkiyəli rəsmilərin koalisiyanın İŞİD-ə qarşı səylərini baltalaya bilən və ya Suriyada sabitliyi poza bilən hər cür birtərəfli qərardan geri çəkilməsini gözləyirik".

ABŞ rəhbərliyi Türkiyənin Suriyada kürdlərin nəzarətində olan torpaqlarda əməliyyat başladılacağı ilə bağlı açıqlamasından narahatdır. Bu barədə "Vaşinqton Post" qəzetinə adı açıqlanmayan ABŞ rəsmisi deyib. Məqalədə ABŞ rəsmilərinin ABŞ və NATO-nun Ankaranın problemlərini həll etmək üçün göstərdiyi səylərin sabitliyi təmin edəcəyinə inandıqları qeyd edilib.

Türkiyə Suriyada hər hansı bir qarşıdurmanın yaranmaması üçün öz addımlarını Rusiya və ABŞ ilə əlaqələndirmək niyyətindədir. Bunu isə Doha forumunun kuluarlarında Türkiyə prezidentinin müşaviri İbrahim Kalın deyib. "Biz İŞİD əleyhinə koalisiyanın bir hissəsiyik və onunla mübarizəni dəstəkləyirik. Buna görə də, öz səylərimizi əlaqələndirmək istəyirik, hərbçilərimiz istənilən qarşıdurmadan dəqiq yayınmaq üçün amerikalılarla, ruslarla və koalisiyanın Suriyada olan digər üzvləri ilə sıx əlaqədə olacaq", - deyə o bildirib.

Kalın həmçinin münaqişələrin qarşısının alınması üzrə mexanizmin olduğunu və bu mexanizmin reallaşdırılacağını dilə gətirib. O eyni zamanda, bildirib ki, Türkiyə öz sərhədində terror təhlükəsinin aradan qaldırılması üçün əlindən gələni edəcək.

Ekspertlər bildirirlər ki, Türkiyə Menbiç əməliyyatına başlarsa, rəsmi Ankaranın ABŞ və Avropa Birliyi ilə münasibətləri gərginləşə bilər. Politoloq Əhəd Məmmədli Qərbin narahatlığının əsassız olmadığını düşünür: "Türkiyə Menbiç əməliyyatının anonsunu verdikdən sonra Ərdoğan Trampı xəbərdar etdi ki, amerikan ordusunu vurulacaq nöqtələrdən çəksinlər. Türk ordusu 100-dən çox nöqtə zərbələri endirəcək. Menbiçdə 1000-dən çox amerikan əsgər kontingenti var. AB-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini yaxşı olar ki, Fransa, Hollandiya, Belçikada baş verən "sarı jiletlər" hərəkatından, brekstdən, qaçqın axınından narahat olsun, daxilindəki problemlərlə məşğul olsun. Avropanın ciddi narahatçılığı başa düşüləndir. Avropa böyüyən Türkiyədən çox qorxur. Qoca Avropa hələ də Osmanlı kabusundan qurtulmayıb. Osmanofobiya, türkəfobiya, islamofobiya Avropanı sonda bitirəcək. Orta əsrlərdə avropalıların ən qorxduğu səs "ay ana türklər gəlir" səsi idi. Bu səsi hələ də avropalılar unutmayıb. Bizdən fərqli gavurlar keçmişini yaxşı xatırlayırlar. Ona görə də gələcəklərini düşünüb hər vəchlə Türkiyənin böyüməsinin qarşısını almağa çalışırlar. Sovetlər Birliyi dağılandan sonra PKK-nı Avropa Birliyi və ABŞ öz himayəsinə götürdü. PKK qurulandan ən pis günlərini yaşayır. Bu terror yuvası məhv olmaq üzrədir. Bu da o deməkdir ki, PKK məhv ediləndən sonra Türkiyə daxili problemləri tam şəkildə həll edəcək və daha çox beynəlxalq siyasətdə çəkisi artacaq. Türkiyənin daha daxili problemlərlə başını qatmayacaqlar. Qərbin də məhz qorxduğu budur. Qərb istəyir ki, qardaş ölkənin başını PKK, FETÖ, DAİŞ kimi problemlərlə qatıb onun beynəlxalq siyasətdə çəkisinin güclənməsinin qarşısını alsın. Proseslər PKK-nın məhvinə doğru gedir. Bu da çox ciddi şəkildə ABŞ-ı, Avropanı narahat edir. Amerika PKK-nın arxasından çəkilsə, heç bir gərginlik olmayacaq. Şimali Suriyada gərginlik yaradan PKK və amerikan qoşunlarıdır. O bölgədə gərginliyə səbəb olan amerikalıların PKK-ya 5 min tır silah göndərməsidir. Afrin əməliyyatı qabağı da Amerika, Avropa narahatçılıqlarını bildirirdilər. Amma fakt qarşısında qaldıqlarından, türk əsgərini Afrində gördüklərindən sonra bu situasiya ilə barışmalı oldular. Eynən Menbiç əməliyyatında da belə olacaq. Nə ABŞ, nə də AB PKK-ya görə Türkiyə ilə münasibətlərini gərginləşdirən deyil. Böyüklər kiçiklərə görə üz-göz olmurlar. Böyüklər ancaq o vaxt üz-göz ola bilərlər ki, bir birlərinə zərər toxundursunlar. Türk ordusu ilə amerikan əsgəri Menbiçdə üz-üzə gəlməyənə qədər münasibətlər ciddi şəkildə gərginləşməyəcək. Yox əgər türklərlə amerikalılar Menbiçdə toqquşsa, bax onda ciddi gərginlik yarana bilər. İnanmıram ki, bu baş versin. Çünki bir-birləri ilə toqquşma nə türklərə, nə də amerikalılara lazımdır. Məhz bunun üçün də əvvəlcədən terroristlərə vurulacaq zərbələrin koordinatları amerikalılara göndərilib. Aydın məsələdir ki, Türkiyə bu əməliyyatı ABŞ, Böyük Britaniya və Rusiya ilə də razılaşdırıb. Ən azından bu dövlətlərə əməliyyat haqqında əvvəlcədən xəbərdarlıq edilib. Britaniya və Rusiya bu məsələdə sakitliklərini saxlayırlar. Afrin əməliyyatında da belə idi. Britaniya və Rusiya sakit durdular, əsasən də Britaniya. ABŞ-la Avropa Birliyi danışdı. Amma onların danışmağı heç nəyi həll etmədi. Menbiç əməliyyatı qabağı da belədir. ABŞ və Avropa Birliyi danışır, Böyük Britaniya və Rusiya sakit durub. Bu dəfə də ABŞ-la Avropa Birliyinin danışmağı heç nəyin qarşısını ala bilməyəcək. Türkiyə Menbiç əməliyyatını başlayıbsa, sona çatdıracaq".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Tramp yenidən impiçment təhlükəsi ilə üz-üzə

## Nəzakət Məmmədova: "Trampın impiçmentə göndərilməsi..."

**Amerika prezidenti Donald Trampın başı üzərindəki impiçment təhlükəsi sovuşmaq bilmir. Son olaraq "Reuters" agentliyinə müsahibəsində Trampın özü bu məsələyə toxunub. Onun fikrincə, impiçment olarsa, xalq üsyan edəcək.**



Politoloq Nəzakət Məmmədova bu məsələnin daim gündəmdə olmasını təsadüf saymır: "Belə nəticəyə gəlmək olar ki, əslində bu iddiaların "Domokl qılıncı" kimi ABŞ prezidentinin başının üstündə saxlanılmasında məqsəd onu güzəştlərə getməyə məcbur etmək, müstəqil qərarlar qəbul etməsinə əngəl törətmək olub. Prezidentə və ümumiyyətlə, ABŞ xarici siyasətinə, elə daxili siyasətə də təsir edən niyyətə sahib bir sıra qüvvələrin olması sirr deyil. İmpiçment təhdidləri öz nəticəsini verib, Tramp geri çəkilib və "qırğılar" bir sıra məsələlərdə üstünlüyə nail olublar. Məsələn, Tramp Türkiyəyə PYD/YPG-yə dəstəyin azaldılacağına söz vermişdi, lakin bu günədək Menbiçdə və Fəratın sahilində ABŞ hərbçiləri ilə PYD çiyin-çiyinədir və Türkiyəyə məhəl qoyulmur. Tramp Güləni Ərdoğana təhvil verməyi vəd etdi, lakin Mərkəzi Kəşfiyyat İdarəsi və Pentaqonun həmləri qarşısında geri çəkilib. Pompeo, Bolton və Haspel kimi "qırğılar" Trampın öz ətrafını istefaya göndərməyə məcbur olması nəticəsində onların yerini tutublar. Nəticədə impiçment təhdidi qarşısında Tramp geri çəkildi, eyni zamanda bir sıra anti-Rusiya addımları ataraq bu ölkə ilə əlaqələrinin olmamasına insanları inandıra bildi. Məsələn, Rusiyaya qarşı sanksiyalar, Ukraynaya silah yardımı və s. Konqresin Nümayəndələr Palatasının Kəşfiyyat Komitəsi və Mərkəzi Kəşfiyyat İdarəsi araşdırma nəticəsində 150 səhifəlik sənəd tərtib etdi və Trampın seçki qərargahının Rusiya ilə gizli sövdələşmə olduğuna dair sübutların olmadığını, rusların Trampa xüsusi kömək etmək istəyinin olmamasını bəyan etdi. Lakin Rusiyanın seçki kampaniyasında ixtilaf yaratmaq istədiyi də istisna edilmədi. Nəticənin bu cür yekunlaşmasına əsas səbəb qeyd etdiyim kimi, Trampın öz əleyhdarı olan qüvvələrlə - Pentaqon və Mərkəzi Kəşfiyyat İdarəsi ilə razılaşmaya getməsi oldu. Prezidentlik müddətinin ilk dövrlərində Tramp onlarla qarşıdurma xətti seçmişdi və bu, onu impiçment təhlükəsi ilə üz-üzə qoymuşdu. Pentaqon, Mərkəzi Kəşfiyyat İdarəsi və Dövlət Departamentindəki sərt xətt tərəfdarlarına qarşı çıxaraq Tramp xarici siyasətdə onların əksinə siyasət həyata keçirirdi. Bu, ABŞ xarici siyasətinin təzadlar və anlaşılmazlıq dövrü kimi də səciyyələnə bilər. Məsələn, Tramp Pentaqonun və MKİ-nin əksinə olaraq xarici siyasətdə mülayim xəttə üstünlük verirdi və bu, onun Pentaqonla qarşıdurmasına səbəb olmuşdu. Eləcə də, Qüdsün tanınması onu digər ABŞ daxili güc mərkəzləri və dünya birliyi ilə üz üzə qoymuşdu. Lakin getdikcə Trampın ətrafında həlqə daraldıqca, o, daha güzəştli mövqe tutmağa başladı. Xüsusən də İrana münasibətdə onun mövqeyi Pentaqonla üst üstə düşürdü. "Dövlət içində dövlət" olan bu kimi qurumlarla hesablaşmaması, onlara meydan oxumaq onu impiçmentə doğru aparmaqla, həm də ikinci müddət prezident seçilməyəcəyi demək olardı. Xüsusən İranla nüvə sazişindən çıxması, Türkiyədəki seçkilərdə Ərdoğana qarşı olan siyasi qüvvələrə dəstək verilməsi və digər məsələdə onun mövqeyi ilə Pentaqon və Mərkəzi Kəşfiyyat İdarəsinin mövqeyi demək olar ki eyni idi. Rusiyaya münasibətdə o, əvvəlki mülayim mövqedə deyil. Tramp yenidən dövlətdaxili güc mərkəzlərinin sözündən çıxsa, ona qarşı yeni ittiham dalğası başlaya bilərdi. Lakin Trampın yaxın olduğu yevangelistlər və yəhudi lobbisi ilə Pentaqonda üstünlüyə malik olan katolik elita arasında hələ ki sövdələşmə olduğu müşahidə olunur. Əgər Tramp bu sövdələşmədən yayınarsa, o zaman ABŞ xarici siyasətində fikir ayrılığının və daxildə anti-Tramp kampaniyasının yenidən şahidi ola bilərik. Hazırda heç zaman olmadığı kimi, Amerikanın xarici siyasəti "qırğılar" və ya "şahinlər" deyilən sərt xarici siyasət kursu tərəfdarlarının nəzarətinə keçib. Tramp isə onlara qarşı əvvəlki kimi müqavimət göstərmir. ABŞ-ın hazırkı qlobal planlarının olduğu dövrdə hakimiyyət daxilində ixtilafların olması nə Trampa, nə də Pentaqonla hərbi-sənaye kompleksinə, transmilli enerji şirkətlərinə lazım deyil. Tramp özü də biznesmendir və hər şeyə ilk növbədə, işgüzar nöqteyi-nəzərdən baxır. Odur ki, bu vəziyyətdə fikir ayrılıqları həm siyasi, həm iqtisadi böhrana səbəb ola bilər. Bu, nə biznesmen prezident Trampı, nə də dövlət içində dövlət olan Pentaqonu qane edir. Odur ki, iki ildən sonra prezident tərəfindən xüsusi bir fors-major olmazsa, Trampın impiçmentə göndərilməsi inandırıcı deyil".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

# Dünyadakı maraqlı Yeni il adətləri...

**Dünyanın dörd bir tərəfində insanlar Yeni ili qeyd etməyə hazırlaşırlar. Təbii ki, hər bir ölkədə bu bayramla bağlı maraqlı adətlər, inamlar var**

Musavat.com onlardan bəzilərini təqdim edir.

Başlayaq İtaliyadan... Adətə görə, Yeni il gecəsi bu ölkədə hər kəs köhnə, lazımsız əşyalardan qurtulmaq üçün onları küçəyə atır. Bu səbəbdən bayram gecəsi küçələrdə çoxlu köhnə mebellət, geyim, bəzək əşyalarına rast gəlmək olur. İtaliyalılar inanır ki, küçədə nə qədər köhnə əşya qalsa, gələn yeni ildə bir o qədər uğurla qarşılaşacaqlar.

İspaniyada isə oğlanlar və qızlar hər iki cinsdən olan insanların adlarının olduğu kağız parçalarından püşk atırlar. İspaniyalıların inanclarına görə bu halda gənclər gələcək həyat yoldaşlarının adına rast gəlir.

İngiltərədə "Yeni ilin buraxılması" adəti var. Bayram axşamı saat 12-ni göstərdikdə insanlar əvvəlcə evin arxa qapısını açaraq "köhnə ili azad edir", daha sonra ön qapını açaraq "yeni ili içəriyə buraxırlar".

Argentinada bayram günü mənzildə olan bütün lazımsız kağızlar, qəzet-jurnallar, ötən ilin təqvimləri, qurumların lazımsız sənədləri və kitablar pəncərədən çölə atılır. İnanxa görə yerli sakinlər bu adətlə həm də stress atmağın yolunu görürlər.







Maraqlıdır ki, İsveçdə Yeni il gecəsi qonşularının qapısı ağzında qab-qacaq sındırmaqla məşğul olurlar.

Almaniyada isə bayram gecəsi bütün nişanlı oğlanlar sevdikləri qızın evinin altına gələrək gələcək həyat yoldaşı ilə göyə atəş açır. Hesab olunur ki, onlar göyə nə qədər çox atəş açarlarsa, gələcək ailələri bir o qədər möhkəm olacaq. Bundan başqa, stulların üstünə çıxan sıravi almanlar növbəti ilə keçən anda özlərini yer atırlar. Yeni ilin çoxlu sərvət gətirməsi üçün isə hər kəs əlinə pul sikkəsi götürür.

Dünyanın lider ölkəsi Amerikada isə ölkəsində də Yeni il axşamı hər kəs bəzədilmiş yolka ağacının altında bir-birinə hədiyyə verir.

Yeni ili maraqlı adətlə keçirən ölkələrdən biri Ekvadordur. Belə ki, burada yerli sakinlər bir neçə metr hündürlüyündə kuklalar hazırlayırlar və həmin kuklanı yaşadıqları məhlədə, yaxud meydançalarda yandırırlar. Simvolik inanca görə, bununla ekvadorlular növbəti ilə yeni insan kimi daxil olur.

İrlandiyada isə Yeni il axşamı sadə vətəndaşlar evlərinin qapılarını açıq saxlayır. Belə anlarda istənilən şəxs evə daxil ola bilər. Bu zaman ev sahibi onu süfrəsinin başına keçirdərək xalis irland viskisinə qonaq edəcək. Yeni ilə az qalmış isə bütün irlandlar şəhərin baş meydanına toplaşaraq içki içir, rəqs edir və əylənirlər.

Yaponiyada Yeni il simvolu Kadomaçu ağacı hesab olunur. Küknar və bambuk ağacının calağından bitən bu ağac Yeni ili salamlayan simvol kimi görülür. Yaponiyada təzə il daxil olan zaman məbədlərdə 108 dəfə zəng çalınır. Yaponlar inanır ki, həmin zəng zərbələrinin hər biri insandakı mənfi cəhəti öldürür. Evlərinə xoşbəxtlik gəlməsi üçün onlar mənzillərinin qapısına bambuk, küknar və şam ağacının budaqlarını bağlayırlar. Yeni ildə ən çox verilən hədiyyələr avar olur. Onlar inanırlar ki, avar çəkməklə evlərə xoşbəxtlik daxil olacaq. Digər bir adət isə bununla bağlıdır ki, hansı ixtisasa sahib olmaq istəyirlərsə, onun şəklini çəkib öz balınclarının altına qoymalıdırl. Yeni İldə həmin istəklər reallığa çevriləcək.

Kubada bayram günü hər kəs evdəki qab-qacağı, stəkanları su ilə doldurur. Əqrəblər 12-ni göstərdikdə isə bütün su dolu qablar evlərin pəncərəsindən çölə axıdılır. Hesab olunur ki, bununla yeni il su kimi axar və açıq il olur. Paralel olaraq, kubalılar bayram gecəsi ilin aylarını simvolizə edən 12 üzüm dənəsi yeməlidir. Bu onlara uğur gətirməlidir. Gecənin sonunda isə ada sakinləri əllərində fişəng və məşəl küçələrdə rəqs edirlər.

Monqolustanda Yeni il maldarlıq bayramı ilə üst-üstə düşdüyündən atçılıq yarışları keçirilir. Avropa xalqlarında olduğu kimi, Monqolustanda da insanlar küknar ağacının başına toplaşır və Uvlin Uvqun (Şaxta baba) ilə qarşılaşırlar. Uvlin Uvqun tülkü dərisindən papaq və kürkdə olur.

Lakin bəzi ölkələr var ki, orada Yeni İl 31 dekabrda deyil, müxtəlif ay və günlərdə keçirilir. Bunun da öz anlamı olur. Məsələn, Efiopiyada Yeni il sentyabrın ortalarına təsadüf edir. Yerli sakinlər odun və kolları bir yerə toplayaraq tonqal qalayırlar. Sonra isə tonqalın ətrafında rəqs edərək, mahnı oxumaqla Yeni ilə çağırış edirlər.

Avstraliya Yeni il yay fəslinə təsadüf edir. Bu səbəbdən Avstraliyada bayramı çimərliklərdə, açıq havada qeyd edirlər. Santa Klaus isə Avropada olduğu kimi ağ saqqala və qırmızı papağa malik olsa da, xarici görkəmi tam fərqlidir.

İranda isə Yeni il martın 21-də qeyd olunur.

Hindistanın cənubunda Yeni il 31 dekabrda keçirilsə də, qərbdə bu bayram oktyabrın sonunda qeyd edilir.

Çində Yeni il 17 yanvar - 19 fevral tarixlərində qeyd edilir. Küçələrdə asılmış xeyli sayda fənər bayram yürüşlərini işıqlandırır. Hesab edilir ki, bu şəkildə Yeni ilə gedən yol "işıqlanır".

❑ **XALİDƏ,**
**Musavat.com**

# Təhlükəli Yeni il oyuncaqları: onları necə tanımaq olar?



**İki həftədən sonra Azərbaycanda da Yeni İl bayramı qeyd olunacaq. Təbii ki, artıq əksəriyyət evlərdə Yolka qurulub, müxtəlif oyuncaqlarla bəzədilib.**

Hazırda tələbatın artdığı bir zamanda bazarlarda, yarmarkalarda müxtəlif ölçüdə, formada istənilən oyuncağı əldə etmək mümkündür. Lakin unutmaq olmaz ki, satılan oyuncaqların böyük qismi Çindən gətirilən keyfiyyətsiz, sertifikatlaşdırılmamış ucuz mallardır ki, bu da təhlükə deməkdir.

Mütəxəssislər dəfələrlə qeyd ediblər ki, düzgün seçilməyən keyfiyyətsiz oyuncaqlar uşaqlarda allergik və digər xəstəliklərin yaranmasına, sinir sisteminin pozulmasına səbəb ola bilir. Bəs nə etməli?

Mütəxəssislər qeyd edirlər ki, Yeni il oyuncaqları və yaxud bəzəklərini alarkən ilk növbədə sahibkarlardan sertifikat tələb etmək lazımdır. Daha sonra yolkaların və oyuncaqların hansı materialdan hazırlanmasına diqqət etmək lazımdır. Belə ki, əgər yolka və oyuncaqlar əllə sürtülən zaman rəng verirsə, pis qoxu gəlirsə, bu zaman mütləq şəkildə həmin oyuncaqlardan imtina edilməlidir.

Və ən əsası yolkanın üzərinə bəzədilən oyuncaqların qısaqapanmaya, yanğınlara səbəb olduğunu artıq hər kəs bilir. Bundan əvvəl Yeni il bayram axşamında bəzəklərdən yaranmış qısaqapanma ucbatından baş vermiş yanğın nəticəsində ailələrin evsiz qalmasının şahidi olmuşuq.

Adətən elektrikli bəzəklərdə qısaqapanma ehtimalı daha çox olur. Beləliklə qısaqapanma da tez yarana, yolkanın altına qoyulmuş pambıqlar alışa və yanğına səbəb ola bilir. Bu səbəbdən yolkanının bəzədilməsində pambıq və digər tezalışan materiallardan hazırlanan aksesuarlardan istifadə məsləhət deyil. Yolkanın işıqlanırılmasında isə zavod istehsalı olan keyfiyyətli avadanlıqlara üstünlük vermək lazımdır.

Heç bir halda evdə qurulan yolkanı diqqətdən kənarda qoymaq olmaz. Xüsusən də yolkanı pəncərənin önündə qurulması təhlükəli vəziyyət yarada bilir. Belə ki, pəncərənin önündə qurulan yolka pərdəyə yaxın olur ki, bu da təhlükəni qaçılmaz edir.

❑ **XALİDƏ,**
**Musavat.com**



## Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində əsgərlər üçün bayram şənliyi təşkil edilib

**Müdafiə Nazirliyi və Nizami Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "N" nömrəli hərbi hissədə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində tədbir keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən Azərtaca bildiriblər ki, tədbirdə çıxış edənlər Həmrəylik Gününün yaranma tarixi, əhəmiyyəti, respublikamızın inkişafının möhkəm təməlini qoyan sabiq prezident Heydər Əliyevin əvəzsiz xidmətləri və prezident İlham Əliyevin fəaliyyəti nəticəsində bütün sahələrdə tərəqqinin təmin olunmasından söz açıblar.

Bakı Şəhər Nizami Rayon Mədəniyyət Mərkəzinin əməkdaşları şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə əsgərlər qarşısında musiqili-konsert proqramı ilə çıxış ediblər.

Tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən hərbi hissəyə yüz kitab hədiyyə edilib. Gəncə Qarnizonu Zabitlər Evinin yaradıcı kollektivi və Gəncə Dövlət Filarmoniyasının solistləri tərəfindən ədəbi-bədii kompozisiyalar təqdim olunub.

Sonda tədbir iştirakçıları əsgərlərin məişət şəraiti ilə tanış olublar.

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018

# "Gülü" ləqəbli dələduz sahibkarın milyonlarını necə ələ keçirib - həbs xronikası

## Axtarışda olan qadın Bakıda saxlanılıb



**Bakıda sahibkarın 2 milyon manatını ələ keçirməkdə təqsirləndirilən qadın saxlanılıb. Onun barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib. Musavat.com xəbər verir ki, külli miqdarda dələduzluq etməkdə ittiham edilən Gülarə Əliyeva barəsində 10 dekabr 2018-ci il tarixdə Xətai Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.**

Sahibkar Nəcəf Nəsirliyə qarşı dələduzluqda ittiham edilən Gülarə Əliyeva bu qərardan narazı qalıb və apelyasiya şikayəti verib. Şikayətə Bakı Apelyasiya Məhkəməsində baxılıb. Məhkəmə şikayəti təmin etməyib.

Məlumata görə, Gülarə Əliyeva uzun müddət axtarışda olub. O, istintaqdan yanınsa da sonradan həbs edilib. Zərərçəkmiş Nəcəf Nəsirlinin vəkili Fərid Həsənov bildirib ki, təqsirləndirilən Gülarə Əliyeva özünü qızıl-zinət əşyalarının biznesi ilə məşğul olan sahibkar kimi təqdim edib. Aralarında yaranmış etibardan istifadə edərək Nəcəf Nəcəfliyə qarşı dələduzluq edib. Ondan qızıl alveri etmək adı ilə pul alıb. Qadın sahibkarın ona olan inamından sui-istifadə edərək, külli miqdarda əmlakını ələ keçirib.

Gülarə Əliyevanın Bakıda bir neçə qızıl mağazasının olduğunu deyib. Hətta Nəcəf Nəsirlini inandırmaq üçün ona bir neçə mağaza göstərərək həmin mağazaların sahibi olduğunu söyləyib. Amma Nəcəf Nəcəfli aldadıldığını başa düşdükdən sonra məlum olub ki, Gülarə Əliyeva nə fiziki şəxs, nə də hüquqi şəxs kimi vergi qeydiyyatına alınıb.

Həmçinin həmin mağazalar Gülarə Əliyevaya məxsus deyilmiş. O, iş adamına söyləyib ki, hər kəs onu "Gülü" ləqəbi ilə tanıyır. Amma bu işdə maraqlı bir məqam var ki, Gülarə Əliyevanın iş adamına göstərdiyi mağazaların sahibi həqiqətən də "Gülü" adlı başqa bir qızıl alverçisi olub. Gülarə Əliyevanın bu yalanının üstü də sonradan açılıb.

Bu cinayətdə Gülarə Əliyeva ilə yanaşı, başqa qızıl alverçilərinin də adı keçir. Sahibkarın Bakı Şəhər Baş Polis İdarəsinə etdiyi şikayət ərizəsi üzrə araşdırmalar aparılır. Hazırda Gülarə Əliyevaya qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

❑ **İlkin MURADOV, Musavat.com**



# Bərdədə şok: oğul anasını küçənin ortasında bıçaqladı

**Bərdə rayonunda bıçaqlanma hadisəsi baş verib. Musavat.com-un Report-a istinadən verdiyi məlumatına görə, Elvin adlı yerli sakin Qarabağ qəsəbəsindəki küçələrdən birində anası Aybənizə boyun və qarın nahiyələrindən bir neçə bıçaq zərbəsi endirib. Ağır xəsarət alan qadın xəstəxanaya çatdırılıb.**

Hadisənin hansı səbəbdən baş verdiyi məlum deyil. Faktla bağlı rayon Polis şöbəsində araşdırma aparılır.

**Beyləqanda bələdiyyə sədrinin və qohumlarının keçmiş bələdiyyə sədri ilə kütləvi davalarının təfərrüatı məlum olub. Bələdiyyə sədri xuliqanlıqda ittiham edilərək məhkəmənin qərarı ilə cəzalandırılıb. Musavat.com xəbər verir ki, kütləvi dava 2017-ci ilin may ayında baş verib. Tərəflər arasındakı məhkəmə çəkişməsi isə hələ də davam edir. Əvvəlcə kütləvi davaya səbəb olan hadisə haqda.**



# Beyləqanda bələdiyyə sədrinin qatıldığı kütləvi davanın təfərrüatı

## Məhkəmə hökmündən hər iki tərəf narazı qalıb

Əfqan Bəşirov 2015-ci ildə İmamverdilər kənd bələdiyyəsinin sədri seçilib. Həmin vaxta kimi İmamverdilər bələdiyyəsinin sədri Rasim Əliyev olub. Bundan sonra Rasim Əliyev və bir qrup kənd sakini Əfqan Bəşirovun barəsində müxtəlif instansiyalara şikayət etməyə başlayıblar. Buna səbəb kəndçilərin torpağının zəbt edilməsi olub. Bu şikayətlərdən sonra 12 may 2017-ci il tarixdə Ədliyyə Nazirliyinin İmişli Regional idarəsinin rəisi Hakim Məmmədov şikayəti yerində araşdırmaq üçün kəndə gəlib.

Bələdiyyə binasındakı görüşdə bələdiyyə sədri, narazı sakinlər və keçmiş sədr də olub. Keçmiş bələdiyyə sədri Rasim Əliyev Hakim Məmmədova araşdırmanı otaqda aparmamasını, əraziyə baxış keçirmək lazım olduğunu deyib. Yeni sədrdən narazı olan Rafiq Tağıyevin sözləri isə mübahisəyə səbəb olub. O, Hakim Məmmədova araşdırmanı onların iştirakı olmadan apardığını, Əfqan Bəşirovdan rüşvət alaraq onun xeyrinə qərar çıxardığını deyib. Hakim Məmmədov isə heç kimdən rüşvət almadığını söyləyib.

Sabiq bələdiyyə sədri Rasim Əliyev isə Hakim Məmmədova "sən gəlib bu dəlixanada, vərəmxanada nə oturmusan, əraziyə bax" deyib. Bu sözə isə sədr Əfqan Bəşirov müdaxilə edib və Rasim Əliyevə "burada nə dəli, nə də vərəm xəstəsi yoxdur, vərəm xəstəsi sənin bacın idi, onu da mən kömək etdim, sağaldı" sözlərini deyib. Bundan sonra Rasim Əliyev və Əfqan Bəşirov bir-birinin ünvanına söyüşlər söyüblər. Digər şəxslərin iştirakı ilə kütləvi dava baş verib.

Dava barədə Beyləqan Rayon İcra hakimiyyətinin şöbə müdiri İlqar Quliyevə məlumat verilib. İlqar Quliyev isə bu barədə Beyləqan Rayon Polis Şöbəsinə məlumat verib və hadisə yerinə polis əməkdaşları gəlib. Araşdırmalar zamanı kütləvi davada zərərçəkənlərin, döyülənlərin sabiq bələdiyyə sədri və adamları olduğu müəyyən edilib. İş üzrə zərərçəkmiş şəxslər kimi keçmiş bələdiyyə sədri Rasim Əliyev və onun yaxınları Yolçu Əliyev, Əsgərxan Tağıyev, Ədalət Əliyev, Vüqar Əliyev, Asim Əliyev və Rafiq Tağıyev tanınıb.

Bələdiyyə sədri Əfqan Bəşirov və qohumları Mübariz Abdullayev, Bəhruz Abdullayev, sürücüsü İkram Tağıyev və qardaşı Anar Bəşirov təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb ediliblər. Onlar Cinayət Məcəlləsinin 221.2.1-ci maddəsi ilə təqsirləndirilərək hakim qarşısına çıxarılıblar. Adları çəkilən şəxslər məhkum ediliblər ona görə ki, onlar bir qrup şəxs halında bələdiyyə binasının önündə ətrafdakılara məhəl qoymayaraq öz üstünlüyüklərini və müstəsna şəxsiyyət olduqlarını göstərmək məqsədilə ictimai qaydanı kobud sürətdə pozaraq, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, şəxslər üzərində zor tətbiq edərək zərərçəkmişlərə qəsdən yumruq və təpik zərbələri ilə vuraraq onlara yüngül və dərəcəsi təyin edilməyən xəsarətlər yetirməklə bir qrup şəxs halında xuliqanlıq ediblər.

Beyləqan Rayon Məhkəməsinin hökmü ilə bələdiyyə sədri Əfqan Bəşirov və Mübariz Abdullayev qazancının 15 faizi dövlət nəfinə tutulmaqla 1 il müddətə islah işləri cəzasına, İkram Tağıyev, Anar Bəşirov və Bəhruz Abdullayev isə qazanclarının 15 faizi dövlət nəfinə tutulmaqla 1 il 6 ay müddətə islah işləri cəzasına məhkum ediliblər.

Bu hökmdən hər iki tərəf narazı qalıb. Hökmün dəyişdirilməsi üçün tərəflər Şirvan Apelyasiya Məhkəməsinə üz tutublar. Zərərçəkmişlər şikayətlərində göstəriblər ki, məhkəmənin qəbul etdiyi qərar obyektiv olmayıb və təqsirləndirilən şəxslərə yüngül cəza verilib. Onlar təqsirləndirilən şəxslərə azadlıqdan məhrum etmə cəzası verilməsini istəyiblər. Təqsirləndirilən şəxslərdən bələdiyyə sədri Əfqan Bəşirov barəsində bəraət hökmü çıxarılmasını, digər şəxslər isə cəzalarının yüngülləşdirilməsini istəyiblər.

Hakim Kamran Əkbərovun sədrliyi ilə keçirilən prosesdə Əfqan Bəşirov deyib ki, keçmiş bələdiyyə sədri və qohumu Ədalət Əliyev onun barəsində müxtəlif ünvanlara əsassız şikayət ərizələri yazıblar. Onun sözlərinə görə, 12 may 2018-ci ildə həmin şikayətlərlə bağlı araşdırma aparılan zaman Rasim Əliyev onun sinəsindən vurub. Daha sonra isə təpiklə bələdiyyənin sürücüsü İkrəm Tağıyevi vurub. Bundan sonra tərəflər arasında qarşılıqlı dava olub. O, zərərçəkmiş şəxslərlə barışıq əldə etməyə cəhd etsə də bunun nəticə vermədiyini deyib. Bələdiyyə sədri söyləyib ki, yalnız onunla qərəzli münasibətdə olan şahidlər onun kimi isə vurmasını göstərmişlər. Ona görə də hökmün ona aid hissədə ləğv edilməsini və ona bəraət verilməsini xahiş edib.

Məhkəmə tərəfləri dinlədikdən sonra şikayətlərin təmin edilməməsi ilə bağlı qərar qəbul edib. Hakim birinci instansiya məhkəməsinin ədalətli qərar çıxardığını elan edib.

❑ **İlkin MURADOV, Musavat.com**



# Ukrayna vətəndaşı olan azərbaycanlı Salyanda qəzada öldü

**Ötən axşam Ələt-Astara avtomobil yolunun Salyan rayonunun Xıdırlı kəndindən keçən hissəsində sürücünün ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**

Virtualaz.org-un Şirvan bürosunun məlumatına görə, əslən Masallı rayonundan olan, 39 yaşlı Ukrayna vətəndaşı Yalçın Sərvi oğlu Rəhimovun idarə etdiyi "Hyundai" markalı minik maşını onunla eyni istiqamətdə hərəkətdə olan yük maşınının arxa hissəsinə çırpılıb.

Hadisə nəticəsində minik maşınının sürücüsü aldığı ağır xəsarətlərdən qəza yerində dünyasını dəyişib. Hadisənin minik maşının sürücüsünün sükan arxasında yuxulaması ucbatından baş verdiyi ehtimal edilir. Onun doğmalarına baş çəkmək üçün Masallıya getdiyi deyilir. Faktla bağlı DYP-də araşdırmalara başlanılıb.

YENİ MÜSAVAT
N 270 (7159) 17 dekabr 2018




# İl sonu endirimlər - hansı yalançı, hansı doğru?

## "Şoppinq xəstəliyi"nin daşıyıcıları əksərən qadınlardır

**Bayram günlərində ən diqqət çəkən marketinq olayı, heç şübhəsiz ki, il sonu endirim kampaniyalarıdır. Deməк olar ki, hər mağazanın şüşələrində "şok endirim" sözünə rast gəlmək mümkündür. 70-80 faizlik endirimlərin daha çox olduğu bu dönəmdə hansının gerçək, hansının yalan olduğunu anlamaq isə xüsusən mübahisəli məqamdır.**

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alıb, endirimlərlə bağlı yalanları, incə məqamları və bu kampaniyaların pərdə arxasını nəzərə çatdırır.

**Ən qəribə kampaniyalar - bir xalça alana, altı xalça hədiyyə...**

Amma bu günə qədər dünyada çox fərqli kampaniyalar keçirilib. Məsələn, Amerikanın ştatlarından birində məşhur bir otel yenicə evlənən cütlüklər üçün 70 faizlik endirim kampaniyası elan etmişdi. Kök olan, amma son bir ayda 5 kilo ata bilən qadınlar üçün 50 faizlik endirim kampaniyası təklif edən mağazalar da olub. Təbii ki, onlar potensial müştərilərini yoxlayandan sonra onlara bu endirimi həyata keçirirlər.

Yazının motivinə uyğun olaraq, bu günə qədər Türkiyədə keçirilmiş ən ağlasığmaz endirim kampaniyaları barədə yazaq. "Bir mal alana, ikincisi havayı" kampaniyaları çox yayılıb deyə barəsində xüsusi danışmağa ehtiyac yoxdur.

Maraqlı kampaniyalardan birini Türkiyədə qovun satıcısı edib. Kampaniya isə belə olub: "Qovunların içində dadsız tapan müştəriyə bir telefon hədiyyə ediləcək". Daha bir xalça satıcısı isə "1 xalça alana, 6 xalça müftə" kampanyası keçirib. Diqqət çəkən isə həmin satılan xalçanın qiyməti olub. Mağazalardan birində isə "tövsiyyə niyyətinə maliyyəsinə satışlar" elanı verilib. Bir mobil mağaza isə "bir nömrə alana, bir şalvar hədiyyə" adlı kampaniya keçirib.

Bəs siz heç kəfən satışında reklam kampaniyası barədə eşitmişdiz? Elan təxminən belə idi. "Cəhənnəm atəşində dayanıqlı kəfən satılır".

**Endirim bəlasına düçar olanlar**

Biz bəlkə də bütün bu proseslərə gülürük. Amma dünyada belə kampaniyaları çılğın kimi izləyənlər ordusu var. İnternetdə bu sayaq saytların daimi izləyiciləri, tez-tez alış-verişə çıxanlardan gedir söhbət. Elmdə bunun adı "şoppinq xəstəliyi"dir. Sözügedən xəstəliyin daşıyıcıları böyük əksəriyyətdə qadınlardır. Onların bu xəstəliyi daşımaları cəmiyyətdə normal qəbul olunur. Bu, təxminən kişilərin birdən artıq qadınla eyni vaxtda münasibət qurmasına bənzəyir. Sonuncu variantda "kişidir, edə bilər" deyilirsə, qadınlara da eyni anlayış göstərilir.

Alimlər onu da müəyyənləşdirib ki, bu xəstəliyə düşməyin də xüsusi səbəbləri var. Bunlardan biri sahib olma ehtirasıdır. Bu xəstəliyin daşıyıcıları "pulum var, ya yox. Ehtiyacım var, yoxsa yox" kimi suallar ətrafında düşünmürlər. Onlar gördükləri, bəyəndikləri hər şeyi satın alırlar. Özlərinə yeni bir şey almayanda isə insanlar özlərini pis hiss edir, sıxıntı keçirir, hətta depressiyaya düşürlər.

Xəstəliyi yaradan ikinci səbəb isə insanda yaranan dəyərsizlik hissidir. Daha dəqiq ifadə etsək, dəyərsizlik, yalqızlıq, acıq, yasaqlanma kimi neqativ duyğular da alış-veriş xəstəliyinə yol aça bilər. Məhz bu səbəbdən bəzi insanlar alış-veriş edərək, özlərini dəyərli hiss edirlər. İnsan satın aldıqlarının ona dəyər qatacağına, güclülük hissi verəcəyinə inanır.

Ancaq istədiyi şeyləri aldığı zaman ilk andakı həzz xaricində xəyal etdiyi hissi yaxalaya bilməyəndə dəyərsizlik hissi bu dəfə daha ağır şəkildə geri qayıdır. Bu zaman vəziyyət daha da qəlizləşir. İnsan o ilk andakı alış-veriş həzzini yenidən yaşamaq üçün gedərək artan bir sürətlə mağazalara hücum edir.

Bu tip xəstələr üçün psixoloqların göstərdikləri yollar aşağıdakılardır:

1.Bəyəndiyiniz bir malı görəndə almayın. Bir az gözləyin və ona həqiqətən ehtiyacınız olub-olmadığını düşünün. Və ya mağaza işçilərindən bəyəndiyiniz malı sizin üçün ayırıb saxlamalarını xahiş edin. Əgər bir neçə gün sonra o malı hələ də almaq istəyirsinizsə, o zaman alın.

2. Özünüzə hər ay bir alış-veriş büdcəsi hazırlayın və büdcəni əsla zorlamayın, aşmayın.

3. İki həftə içində etdiyiniz bütün alış-veriş xərclərini bir kənara yazın. Bu, sizin alış-verişə nə qədər çox pul xərclədiyinizi görmənizə səbəb olacaq.

4. Kredit karınızın(əgər varsa) limitini aşağı salın.

Psixoloqlar düşünür ki, deyilən məsləhətlərə əməl edənlər tez bir zamanda sözügedən xəstəliyin pəncələrindən də qurtula biləcək. Psixoloqlar onu da araşdırıb ki, iri alış-veriş mərkəzləri müştərilərin daha çox cəlb edilməsi üçün xüsusi hiylələr tətbiq edirlər və bu zaman mütəxəssis yardımından istifadə edirlər.

**İnsanlar mağazaya girən kimi sağa yönəlirlər**

Sonuncular elmi erqonomiya adlı sahəni təmsil edirlər və insanların alış-veriş zamanı necə düşündüyü, necə reaksiya verdiyi barədə dinamikalar üzərində işləyir. İlk təsbit: İnsanların çoxu solaxay olmadıqları üçün alış-veriş mərkəzlərinə girərkən öncə sağ tərəfə yönəlirlər. Buna görə də böyük mağazaların əksəriyyəti sağ tərəfdə yerləşdirilir. 2. Soyunma kabinələrini qəsdən mağazanın sonunda yerləşdirirlər ki, ora çatana qədər müştəri gözünə dəyən bir neçə qiyafəni də geyinmək üçün götürsün. 3. Market arabaları qəsdən böyük hazırlanır ki, insan hər dəfə ona baxdıqca guya az alver etməsi ilə bağlı təəssürata qapılsın. 4. Mağazalarda iri aynaları həm də ona görə qoyurlar ki, alış-veriş etmək istəməyən insan belə orada özünə və ətrafındakı geyim-gecimli insanlara baxıb kompleksə düşsün, nəticədə isə özünə paltar alsın. 5. Reklam kampaniyalarındakı "fürsəti qaçırmayın", "70 faiz" endirim kimi çağırışlar da insanı dərhal nəsə almağa təşviq edir.

**Amerikada endirim - 1000 dollarlıq məhsul 150 dollara satılır**

Amerikada bu sayaq kampaniyalar nəticəsində 1000 dollarlıq bir məhsul 100-150 dollara satılır. Türkiyədə, eləcə də Azərbaycanda həyata keçirildiyi iddia edilən endirimlərin böyük əksəriyyəti gerçək deyil. İstehlahçını yanıldırlar. Əsas məqsəd isə anbarı əritməkdir. İqtisadçılar və marketinq mütəxəssisləri deyir ki, son dönəmdə insafsız qiymət artımları ilə qarşı-qarşıya qalmışıq. İnflyasiya ilə mübarizə üçün bu cür üsullardan istifadə edilir. Son zamanlar isə "mövsüm sonu endirimləri", "bayram endirimləri", "Black Friday" kampaniyasını özlərinə reklam ünsürü olaraq seçiblər. Dolların yüksək kursu zamanı sata bilmədikləri malları endirim yalanı ilə satmağa çalışırlar.

Endirim kampaniyalarında tez-tez rast gəlinən "başlanğıc qiymətlərlə" kimi bir çox ifadələr də həqiqəti əks etdirmir. Çünki bu və ya digər malın başlanğıc, ilkin qiyməti əsasən müştərilərə məlum olmur.

**Endirim sözünü oxuyanda bu nüanslara diqqət edin!**

- Alış-veriş edərkən zehnimizdə bir rəqəmi referans alır və dəyərləndirmələrimizi də bu rəqəmə görə edirik. Buna ayarlamaq deyilir. Bu mexanizm, xüsusən də endirimli satışlarda dövrəyə girər: endirim öncəsindəki qiymətləri əsas götürür və ortaya yeni çıxan qiyməti bir fürsət olaraq görürük. Amma gerçək hər zaman belə deyildir.

- Əsas qiymətlərin üstünün çarpaz xətlə qeyd olunaraq, endirimli qiymətlərin böyük yazılması müştəridə bir fürsət yaxaladığı təəssüratını gücləndirir.

- Markalı güneş eynəkləri kimi bəzi bahalı məhsullar, hər zaman 30-35 faiz endirimlə satılır. Beləliklə, alıcı demək olar ki, heç tətbiq olunmayan endirimsiz qiymətdən yola çıxıb, zehnində çox yüksək bir nöqtəyə qoyduğu eynəyi endirimlə aldığı üçün onu çox dəyərli bilər, özünü də mənfəət əldə etmiş hiss edər.

- Endirimli satışlarda təqdim edilən fürsətlər, bir neçə dəfə göstərilməyə çalışıldığı qədər önəmli deyil. Önəmli olan məhsula sizin biçdiyini qiymət və o an keçərli olan qiymətdir.

- Qiymət və dəyər arasında birbaşa bir bağlantı olmadığını, çox vaxt dəyər ölçümüzün yanıldılaraq qiymətlərlə oynadığını əsla unutmayın.

- Həyata keçirilən endirim faizini, aldığınız məhsulun orijinal qiymətini dəqiq bir şəkildə bilmək haqqınızdır. Sizə təqdim edilən qiymətlərin doğruluğunu mütləq araşdırın. Bunun üçün başqa mağazalar və ya onlayn satış həyata keçirən alış-veriş saytları sizin üçün önəmli bir referans olacaq.

**Məşhur qara cümə**

Və endirimlərin ən məşhuru, ən geniş yayılanı. ABŞ-da hər il noyabr ayının dördüncü cümə axşamı gün "Minnətdarlıq Günü" (Thanksgiving Day) kimi qeyd olunur. Bu gündən bir gün sonra, yəni Cümə günü "Black Friday" yəni "Qara Cümə" adlandırılır. Həmin gün mağazalar ən azı 20% olmaqla 70%-ədək endirimlər tətbiq etdiklərindən insanlar mağazalara hücum çəkirlər. Bu Cümə günü də ABŞ-lı istehlakçılar mağazaların qarşısında uzun növbələr əmələ gətirmişdi. Mağazaya ilk girənlərdən olmaq və istədiyi məhsulu qurtarmadan almaq üçün saatlarla növbə gözləyən Amerikalılar, xüsusilə "Moda Prospekti" kimi tanınan "Fifth Aveneu"dakı mağazaların qapısında gözləməyə başlamışdılar.

Bu alver gününə ilk dəfə 1961-ci ildə qəzetlər tərəfindən "Black Friday" adı qoyulub. Buna səbəb isə o gün Fladelfiada, alış-verişdən ötəri nəqliyyatda yaranan "tıxac"lar və digər çətinliklər göstərilmişdi. Ancaq 1975-ci ildə "Black Friday" üçün başqa mənalar da işlədilməyə başladıldı. Çünki "Black Friday", adındakı "Qara" ifadəsinə baxmayaraq, bir çox adam tərəfindən qara deyil "Pink" (çəhrayı) hesab edilirdi.

Çünki bu dövrdə bir çox mağaza, ilin ən yaxşı gününü yaşayır və gəlirlərini olduqca yüksəldirlər. O günə qədər il ərzində zərər edən firmalar həmin gün səbəbindən ili böyük qazancla bağlaya bilirlər.

"Black" sözü İngiliscədə eyni zamanda mühasibatlıq dilində də tez-tez istifadə edilən bir sözdür. Belə ki, "Black" balansda qazanc ilə zərərin başabaş gəldiyi nöqtə üçün də istifadə edilən bir təbirdir. Bu səbəbdən də "Black Friday" şirkətlərin zərərdən başabaş nöqtəsinə gəlməsini təmin edən gün olaraq da adlandırılır.

Bundan başqa, ABŞ-ın şirkətləri zərərlərini mühasibat hesablarına qırmızı qələmlə yazarlar, qazanc əldə etdikləri nöqtədə qara qələm istifadə edirlər. "Qara Cümə", şirkətlərin o gün üçün yalnız qara qələm istifadə etməsinə səbəb olduğundan "Black Friday" belə bir məna da verir.

Bu dövrdə edilən alverə bariz bir nümunə kimi "Wal-Mart" göstərilə bilər. Dünyanın ən böyük pərakəndə mağazalar şəbəkəsi həmin gün milyardlarla dollar gəlir əldə edir.

Bu il də bir çox amerikalı hətta ənənəvi Şükranlıq şam yeməyini başa vurmamış "Qara Cümə" alış-verişi üçün cümə axşamından dükanların önündə növbələrə dayanmağa, çadır qurararaq gecələməyə başlayıb.

"Kmart" kimi bəzi dükanlar ənənəni saxlayaraq qapılarını səhər saat 6-da açsa da, bir çox dükan iki gün öncədən açıq olub. Şükranlıq gününün səhəri Amerikada Black Friday "Qara Cümə" günü kimi tanınır. Bu gün Amerikanın ən böyük ticarət mərkəzlərində elektrotexnika malları, oyuncaqlar və geyimlər böyük endirimlərlə satışa çıxarılır.

**❑ Sevinc TELMANQIZI, Musavat.com**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 270 (7159) 17 dekabr 2018*




## Nyu-York metrosunda qadın davası

**Nyu-York metrosunda 40 yaşlı bir qadın gənc bir həmcinsinə qarşı aşağılayıcı ifadələr işlədib, ardınca isə dava edib. Metrodakı sərnişinlərdən biri dava çıxaran qadının əl-qolunu tutaraq, polis çağırıb. Bu barədə "The New-York Post" nəşri xəbər verib. Hadisə səhər saat 8 radələrində baş verib. 40 yaşlı Anna Luşinskaya yanında dayanan qıza irqçi şüarlar səsləndirərək, onu təhqir edib. İnsanlar onu qızdan kənarlaşdırmağa çalışsalar da, davakar qadın aqressiya nümayiş etdirməkdə davam edib.**

Bu yerdə gənc bir nyu-yorklu insidentin qarşısını almaq üçün qadının əl-qolunu tutaraq, onu zərərsizləşdirməyə çalışıb. O, hadisənin fotolarını Twitter hesabı vasitəsilə paylaşıb. Fotolardan birində onun qadını tutması, digərində isə polisə təhvil verməsi səhnəsi öz əksini tapıb. Hadisəni xəbərə çevirən saytlar isə iddia edir ki, bu, heç də sözügedən qadının metroda çıxardığı ilk dava deyil. Onun dosyesində buna bənzər ona yaxın dava var ki, polis idarəsində yekunlaşıb. Məsələn, daha öncə onu piyadalara tüpürdüyü üçün saxlamışdılar.

# Pişiklər sahiblərini səslərindən tanıyırlar



**Tokio Universitetinin professorlarının uzun müddət davam edən araşdırmaları nəticəsində məlum olub ki, pişiklər sahiblərinin səsini tanıyırlar, lakin onları eşitmək istəmirlər. Araşdırma zamanı əvvəlcə pişikləri tanımayan 3 nəfər onları adları ilə çağırıb. Pişiklər tanımadıqları səslərə heç bir reaksiya verməyiblər. Sonra isə sahibləri onlara səslənib. Pişiklər sahiblərinin səslərini eşitdikləri zaman başları, qulaqları, ayaqları, quyruqları və gözləri tərpənib.**

Maraqlıdır ki, pişiklər sahiblərinin səslərini tanısalar da, yerlərindən qalxmaq istəmədikləri zaman onları eşitməmiş kimi hərəkət edirlər. Mütəxəssislər itlərlə pişiklərin sahiblərinə qarşı fərqli münasibət bəslədiklərini deyirlər. Bunun səbəbi isə itlərin qədim zamanlardan bəri insanların dostu olması, pişiklərin isə yalnız siçan tutmaq məqsədi ilə saxlanılmasıdır.

# Meymun sayəsində ana oldu



**Britaniyanın Kolçester şəhərində 50 yaşlı, "Racanq" ləqəbli oranqutanq ölüb. "The Mirror" nəşrinin yazdığına görə, o, yerli sakinlərin sevimlisi olub. Hətta bir qadın hesab edir ki, altı dəfə hamiləliyi pozulandan sonra ona uşağını dünyaya gətirməyə məhz bu meymun yardım edib.**

Nina Merston adlı qadın danışıb ki, 2017-ci ildə zooparka gəlib. Həmin vaxta qədər o, 4 il boyunca uğursuz hamiləliklər yaşayıb. Altı dəfə bətnindəki uşağı itirəndən sonra qadın xəstəxanada müalicə kursu keçib və yeməyinin, sağlamlığının qeydinə diqqətlə qalmağa başlayıb. Növbəti, yeddinci hamiləliyini yaşayan qadın rəfiqəsi ilə zooparka gedib.

O, həmin vaxt arzulayıb ki, "Racinq" onun qarnından öpsün: "Mən zooparka 4 yaşımdan bəri gedirəm. "Racanq" isə hər zaman mənim sevimlim olub. Bu, elə bir yerdir ki, mən orada bütün qayğılarımı unuduram". Merston uzun növbədə dayanıb, meymunun yanına çatanda isə qarnını açıb və meymunun onu öpməsini istəyib. Meymun şüşənin arxasından qadının qarnını öpüb. Britaniyalı xoşbəxtlikdən ağlayıb və meymuna təşəkkür edib.

Bir neçə ay sonra Merston qızını dünyaya gətirib və onu Elizabet adlandırıb. Bir neçə gün öncə isə "Racanq" 50 yaşında dünyasını dəyişib. Zoopark əməkdaşlarının dediyinə görə, son bir neçə ayda meymunun vəziyyəti gündən-günə pisləşirmiş. Bu da onun qocalıq xəstəlikləri ilə bağlı idi. Son nəticədə veterinarlar ona güclü yuxu dərmanı verərək həyatını sonlandırdılar. Merston bu xəbəri eşidəndə çox pis oldu. O, meymunu zooparkın ayrılmaz hissəsi adlandırırdı və qızı gələcəkdə onu görməyəcək deyə çox qəmgin olduğunu bildirirdi.




**QOÇ** - Rastlaşdığınız problemləri dinc yolla həll etməyə çalışın. Kənar müdaxilələrə o qədər də əhəmiyyət verməyin. Günün ikinci yarısı aldığınız hər bir dəvəti təxirə salın.

**BUĞA** - Planetar quruluş risklərin ağır fəsadlar verəcəyini göstərir. Odur ki, yeni işlərinizi təxirə salın. Vaxt tapıb müqəddəs ziyarətgahlarımıza səfər edin. Axşam maraqlı insanlarla üzləşəcəksiniz.

**ƏKİZLƏR** - Hansısa sövdələşmə ilə bağlı bəzi anlaşılmazlıq yarana bilər. Lakin bunu zorakı üsullarla yoluna qoymaq səmərəsizdir. Axşama doğru yaxınlarınız tərəfindən sevinəcəyiniz gözlənilir.

**XƏRÇƏNG** - Gün ərzində yalnız adi işlərlə məşğul olmağa çalışın. Hansısa ciddi məsələyə müdaxilə etmək, risklərə meyllilik arzuolunmazdır. Xüsusən də saat 15-dən sonra ayıq-sayıq olun.

**ŞİR** - Şəxsi büdcənizi artırmaq üçün geniş imkanlar qazansanız da, bu təqvimi mübahisəsiz başa vurmayacaqsınız. Ulduzlar son vaxtlar səbrsiz və əsəbi olmağınızdan şikayət edir.

**QIZ** - Nədənsə son vaxtlar ulduzların tövsiyələrinə əməl etmirsiniz. Belə passivliklə irəli getməksə çox çətindir. Bu səbəbdən də nahardan sonra gözlənilən önəmli şanslardan bəhrələnməlisiniz.

**TƏRƏZİ** - Ətrafınızdakıların sizin kimi olmamasından məyus olursunuz. Unutmayın ki, hər kəsin öz xarakteri var və reallığa düzgün yanaşmalısınız. Kobud adamlara qarşı sərt mövqe sergiləyin.

**ƏQRƏB** - Ulduzların sizə verdiyi tarixi fürsətdən bəhrələnməyə çalışın. Bütün gücünüzü səfərbər edin. Boş dayanmaq məğlubiyyətdir. Yaxşı mənada hər bir vasitədən istifadə edin ki, sonda gülənlərdən olasınız.

**OXATAN** - Günün ümumi mənzərəsi qənaətbəxş olsa da, bəzi vacib məsələlərdə həlledici qərarı özünüz çıxarmalısınız. Xüsusən də nahardan sonra uzaqgörənliyə ehtiyacınız olacaq. İmanınızı qoruyun.

**OĞLAQ** - Yaxşı olar ki, bu təqvimdə əsas diqqətinizi sevgi amilinə yönəldəsiniz. Bu, rahatlığınızı təmin etməklə bahəm, növbəti günlər üçün də sevindirici məqamlarla üzləşəcəyinizə təminat verəcək.

**SUTÖKƏN** - Bütün gücünüzü fəaliyyətə həsr etsəniz, ötən günlərdən yarımçıq qalmış problemləri dəf edəcəksiniz. Uzaq səfərə çıxmaq fikrindən daşının. İşgüzar sövdələşmələrdən yan keçməyin.

**BALIQLAR** - Hər bir münaqişədən uzaq olmağa çalışın. Rəqib və düşmənlərinizdən qisas almaqdansa yarımçıq planlarınızı yekunlaşdırın. Ailə-sevgi münasibətlərində səbrli və mülayim olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadın bananla arıqlayır



**Avstraliyada Loni Jane Antoni adlı qadın meyvə diyetinin köməyi ilə arıqladığı üçün internetdə məşhurlaşıb. Bananlardan kokteyl hazırlayan, hər gün banan yeyən qız qısa müddətdə arıqlamağı bacarıb.**

"Freelee the Banana Girl" adından istifadə edən Loni adlı qız kokteylə ananas və başqa meyvələr də əlavə edir. Hər gün 51 banan yediyi videoları internetdə paylaşan Loni gündə ən azı, 10 banan yeməyi məsləhət görür. Avstraliya mediası qız haqqında yayılan məlumatları dərc etdiyi üçün o daha da məşhurlaşıb. Ölkənin ən məşhur həkimləri isə qızı sərt şəkildə tənqid edərək, bu yolla arıqlamağa çalışanlara xəbərdarlıq ediblər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100